

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Xalqına müzəffər sərkərdə bəxş edən ana



4


№ 058 (6741)

SƏS

6 aprel 2023-cü il.
Qiymәti 60 qәpik


# Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir!



2

*PREZİDENT İLHAM ƏLİYEV: "Əminəm ki, Azərbaycan-Tacikistan münasibətlərinin çox yaxşı gələcəyi var"*

# Sosial müdafiənin unikal konsepsiyası



15

## Üstün zəkanın misilsiz xitmətləri



8

Yeni təyinat məhkəmə sistemində hansı dəyişikliyə səbəb olacaq?



6

Sülh və inkişafa xidmət edən diplomatik əlaqələr: Azərbaycan-Malayziya



11

## Gəncləri zərərli təsirlərdən necə qoruyaq?



16

## Aprel döyüşləri: Şanlı Zəfərə doğru yolun başlanğıcı!



12

# Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir!



## PREZİDENT İLHAM ƏLİYEV: "Əminəm ki, Azərbaycan-Tacikistan münasibətlərinin çox yaxşı gələcəyi var"

***Bu gün 2020-ci ildə Vətən müharibəsində Azərbaycanın öz ərazilərini erməni işğalından azad etməsindən sonra ölkəmizin regionda və dünyada nüfuzu durmadan artır. Azərbaycan regionda söz sahibinə çevrilib və Cənubi Qafqazda vəziyyətə özü diktə edir. Təsadüfi deyil ki, bölgədə sülhün bərpası prosesində Azərbaycanın irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünyanın supergüc dövlətləri və beynəlxalq təşkilatları tərəfindən qəbul edilməkdədir.***

Bu isə Azərbaycanın müxtəlif ölkələrlə əlaqələrinə də müsbət təsirini göstərir. Xüsusilə, Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən türk dövlətləri ilə münasibətlərində böyük canlanma müşahidə olunur və Azərbaycanın xarici siyasətində biz bunun şahidi oluruq. Prezident İlham Əliyevin son bir-iki il ərzində Mərkəzi Asiya, o cümlədən regionun türkdilli ölkələrinə ardıcıl səfərləri və həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri türk dünyası üzvləri ilə əlaqələrimizin genişlənməsini, dərinləşməsini və strateji xarakter almasını şərtləndirir. Səfərlər zamanı imzalanan müqavilələr, sazişlər ölkələrimiz arasında münasibətlərin gələcək konturlarını müəyyənləşdirir.Türk dünyası ölkələri ilə əlaqələrin, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı deyib: «Təsadüfi deyil ki, hətta mənim səfərlərimin və qardaş ölkələrin dövlət başçılarının səfərlərinin son xronologiyasına baxsaq, bizim bu məsələyə əlavə dinamizm verdiyimizi görmək olar. Bütün türkdilli ölkələrlə münasibətlər bizim üçün prioritetdir. Xüsusən indiki geosiyasi vəziyyətdə biz qarşılıqlı dəstəyin, dövlətlərimizin müstəqilliyinin, suverenliyinin möhkəmləndirilməsinin, əməkdaşlığımıza konkret məzmun verməyin zəruriliyini nəzərə alaraq, ümumi maraqlar ətrafında daha sıx birləşməliyik».

Bu baxımdan aprelin 5-də Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana dövlət səfəri olub. Bu səfər iki ölkə arasından dost və qardaşlığın göstəricisidir. Tacikistan Prezidenti Emoməli Rəhmon ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Düşənbədə təkbətək görüşü olub. Görüşdə Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq bildirilib. Dövlətlərimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edilib.

### TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMON: « Tacikistan-Azərbaycan münasibətləri inkişaf edir»

«Hörmətli İlham Heydər oğlu, Tacikistana xoş gəlmisiniz. Xalqlarımız arasında qarşılıqlı münasibətlərin qədim tarixi və xoş ənənələri var».Bu sözləri Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə təkbətək görüşü zamanı bildirib ki, bu rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından önəmi vurğulayıb: «Sevindirici haldır ki, bu gün bizim dövlətlərarası münasibətlər bir çox istiqamətlər üzrə inkişaf edir. Biz bu münasibətlərin bütün formatlarda daha da möhkəmlənməsinə böyük əhəmiyyət veririk. Bu gün Sizinlə ölkələrimizin qarşılıqlı əlaqələrinin vəziyyətini və perspektivlərini, habelə beynəlxalq və regional məsələləri müzakirə etməyə hazıram. Bir daha xoş gəlmisiniz. Ölkəmizdə vaxtınızın xoş keçməsini arzu edirəm».





## TACİKİSTAN PREZİDENTİ: "Tacikistan və Azərbaycan xalqlarını qədim tarixi köklərə malik olan ənənəvi dostluq telləri bağlayır"

### PREZİDENT İLHAM ƏLİYEV: «Qardaş, dost Tacikistana yenidən gəlməyimə çox şadam»

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü zamanı söyləyib ki, Azərbaycanla Tacikistan arasında münasibətlərin yaxşı tarixi və gələcəyi var: «Siz qeyd etdiyiniz kimi, Azərbaycanla Tacikistan arasında münasibətlərin yaxşı tarixi və əminəm ki, çox yaxşı gələcəyi var».Dövlətimizin başçısı deyib: «Biz həm beynəlxalq məkanlarda, beynəlxalq strukturlar çərçivəsində və əlbəttə, ikitərəfli formatda çox istiqamətlər üzrə əməkdaşlıq edirik. Əməkdaşlığın, o cümlədən ticari-iqtisadi, sənaye kooperasiyası, nəqliyyat sahələrində dərinləşməsi üçün çox yaxşı perspektivlər var».İki ölkə liderlərinin təkbətək görüşündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü olub..Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

### AZƏRBAYCAN PREZİDENTİ: «Dövlətlərarası münasibətlərimiz dövründə çox möhkəm təməl yaratmağa nail olmuşuq»

«Ölkələrimizin xalqları uzun müddət ərzində fəal qarşılıqlı əlaqə saxlayırlar. Çox sevindirici haldır ki, 30 ildən artıq inkişaf edən dövlətlərarası münasibətlərimiz dövründə biz çox möhkəm təməl yaratmağa və bu təməl üzərində dostluğumuzun möhkəm binasını qurmağa nail olmuşuq».

Ardı Səh. 3

# Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir!



Əvvəli-Səh-2

Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü zamanı söyləyib.«Biz həm çoxtərəfli formatda, həm də xüsusilə ikitərəfli formatda fəal qarşılıqlı əlaqə saxlayırıq. Həmişə mehriban dostlar kimi çox səmimi əməkdaşlıq edirik», - deyə dövlətimizin başçısı vurğulayıb.

## TACİKSTAN PREZİDENTİ: «Tacikistan və Azərbaycan xalqlarını ənənəvi dostluq telləri bağlayır»

«Tacikistan və Azərbaycan xalqlarını qədim tarixi köklərə malik olan ənənəvi dostluq telləri bağlayır. Sevindirici haldır ki, bu gün ölkələrimizin dövlətlərarası qarşılıqlı əlaqələri geniş spektr üzrə ardıcıl surətdə inkişaf edir». Bu sözləri Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə geniş tərkibdə görüşündə bildirib. Bu qarşılıqlı fəaliyyətin siyasi, ticari-iqtisadi, elmi-texniki, mədəni-humanitar və bir sıra başqa sahələri əhatə etdiyini vurğulayan Emoməli Rəhmon qeyd edib: «Biz Azərbaycan Respublikası ilə həm ikitərəfli əsasda, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın hərtərəfli genişlənməsinə daim diqqət yetiririk».

Aprelin 5-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olub. Həmçinin, Azərbaycan və Tacikistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər.

"Diplomatik münasibətlərin otuz ili ərzində Tacikistan və Azərbaycan səmərəli qarşılıqlı fəaliyyət mexanizmləri qura və bu gün qardaş xalqlarımızın rifahına xidmət edən sanballı nəticələr əldə edə biliblər." Bu barədə Tacikistan Prezidenti Emoməli Rəhmon Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə mətbuata bəyanatında bildirib. "Buna çox cəhətdən əsası Azərbaycan xalqının görkəmli oğlu və mənim dostum, böyük yoldaşım Heydər Əliyev tərəfindən qoyulmuş sıx, qarşılıqlı etimada əsaslanan əlaqələr şərait yaradır. Gələn ay Heydər Əliyevin 100 illiyini Tacikistanda da qeyd edəcəyik", – deyə Tacikistan Prezidenti vurğulayıb.

"Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı." Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Düşənbədə Tacikistan Prezidenti Emoməli Rəhmon ilə birgə mətbuata bəyanatında səsləndirib.

Dövlətimizin başçısı deyib: "Xalqlarımızın milli maraqlarına əsaslanan siyasət yürüdən ölkələrimizin nümunəsi ona dəlalət edir ki, hətta inkişafın ən aşağı nöqtəsində olduqda da müdrik rəhbərlik sayəsində böyük nəticələr qazanmaq olar. Atam Heydər Əliyevin xatirəsinə səmimi münasibətə görə Tacikistan Prezidentinə təşəkkürümü bildirmək istərdim. O, Emoməli Şərifoviç Rəhmon ilə birlikdə ölkələrimiz arasında dövlətlərarası münasibətlərin formalaşmasının təşəbbüskarı olub və mahiyyət etibarilə onlar bu münasibətlərin əsasını qoyublar."

Dövlətimizin başçısı qeyd edib ki, bu gün ölkələrimiz arasında qardaşlıq münasibətlərin uğurlu inkişafı məhz 1990-cı illərin əvvəllərindəki fəaliyyətin nəticəsidir. "O vaxt həm Tacikistan, həm də Azərbaycan böyük çətinliklərlə üzləşmişdi, ölkələrimizdə ictimai-siyasi sabitlik pozulmuşdu, təəssüf ki, həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Ən dəhşətli müharibə qardaş qırğınıdır. Həm Prezident Rəhmon, həm də Prezident Heydər Əliyev, – hərəsi öz ölkəsində, - qanlı səhifəni çevirmək və ölkələrimizi inkişaf yoluna çıxarmaq üçün nə mümkündürsə etdilər və buna nail oldular. Paytaxtınız, ilbəil gözəlləşən Düşənbə şəhərinin coşqun inkişafını görəndə çox sevindim. Mən axırıncı dəfə Düşənbəyə təqribən beş il bundan əvvəl gəlmişdim və əminliklə deyə bilərəm ki, bu qısa müddət ərzində mühüm müsbət dəyişikliklər baş verib."

Tacikistanlı həmkarını və bütün qardaş Tacikistan xalqını Tacikistanın sosial-iqtisadi inkişafında böyük nailiyyətlər münasibətilə təbrik edən dövlətimizin başçısı deyib: "Onu da qeyd etmək istərdim ki, həm gördüklərim, həm də Tacikistan Prezidentinin gələcək planları barədə mənə dedikləri ona dəlalət edir ki, Tacikistanın paytaxtı daha gözəl, qonaqlar və sakinlər üçün daha rahat olacaq".

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin Taciksitana səfəri, Prezident Emoməli Rəhmon ilə görüş, imzalanan sənədlər və liderlərin səsləndirdiyi fikirlər, hər iki ölkə liderlərinin mətbuata bəyanatlarla çıxışları iki ölkə arasında münasibətlərin inkişafı yaxşı perspektiv vəd edir və bunun üçün böyük potensial mövcuddur. Həmçinin, iki ölkə münasibətlərində dərin əməkdaşlığa əsaslanan yeni mərhələnin əsasının qoyulduğunu deməyə əsas verir. Dövlət başçımızın dediyi kimi: «Əminəm ki, Azərbaycan-Tacikistan münasibətlərinin çox yaxşı gələcəyi var.





**RƏFİQƏ KAMALQIZI**

# Xalqına müzəffər sərkərdə bəxş edən ana

***Həmişə adını böyük hörmət və sayğı ilə andığımız, əsl azərbaycanlı xanıma məxsus geyimi, səliqəsi, danışığı ilə yaddaşlarımıza həkk olan, insanlara nur bəxş edən nurlu bir qadından yenə də söhbət açmaq istəyirəm. Ulu Öndər Heydər Əliyevin sədaqətli, vəfalı ömür-gün yoldaşından, evinin işığı, nuru olan qadından danışmaq istəyirəm. Özü kimi dünyaya lider gətirən qayınanasının sevimli gəlinindən-Zərifə xanımdan, xalqımıza müzəffər sərkərdə bəxş edən anadan bəhs etmək istəyirəm.***

Böyük bir sevgi ilə Heydər Əliyevlə ailə həyatı quran, Yaradan tərəfindən bir oğul, bir qız övladı ilə mükafatlandırılan, həyat yoldaşının hər zaman arxa-dayağı olan Zərifə xanım həm də ziyalı bir qadın idi. O, yaşamaq, həyatın bütün gözəlliklərini duymaq üçün insana gərək olan ən vacib orqanın-gözün patologiyasını o qədər dərindən əxz etmişdi, bu sahəni mükəmməl öyrənməsinə o qədər zaman və zəhmət sərf etmişdi ki, insanlara nur paylamağı Allah-təala bu zəhmətin qarşılığı olaraq ona bəxş etmişdi. Zərifə xanım Əliyeva haqqında, nurlu insan, deyə bəhs edirlər. Bu sözün böyük mənası var. Həqiqətən də Zərifə xanım nurlu bir insan idi. Bunu onun həyat səhifələrini çevirdikcə aydın şəkildə görmək olur. Bu səhifələrlə tanış olduqdan sonra o qənaətə gəlirsən ki, Zərifə xanım harada olubsa, ora işıqlı, nurlu olub.

Bu nurdan təbii ki, cənab İlham Əliyev də öz payını almışdır ki, düşmənin bir qərinəyə yaxın işğalına məruz qalan, üzərinə qaranlıq çökən Qarabağımızı 30 ilin sonunda nura boyadı. Bu nur üçün 30 ilin 20 ilə yaxın zamanını dünya miqyasında mübarizəyə həsr etdi, böyük uzaqgörənliklə elə planlar hazırladı, problemə elə zərgər baxışı ilə yanaşdı ki, sonda Qarabağı anası Azərbaycana qaytarmağı bacardı.

### Torpaq həsrətinə son qoyan Sərkərdə

Zərifə xanımın dünyaya gətirdiyi övladı Azərbaycanın işğal olunan torpaqlarının azad olunması ilə tarixin 200 illik zaman kəsiyinin axarını dəyişdi. Zaman göstərdi ki, məhz Heydər Əliyev və Zərifə xanım Əliyeva kimi dahi insanların, gözəl ata-ananın, ləyaqətli vətəndaşların, ictimai xadimlərin, vətənpərvər insanların ailəsində İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdıracaqdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevriləcəkdi. 30 il işğal olunan torpaqlara görə başını dik tuta bilməyən xalqın başını zirvələrə qaldıracaqdı. Xalqa qürurunu, namusunu, iffətini qaytaracaqdı.

Bəli, Zərifə xanımın dünyaya gətirdiyi övladı tək ailəsinə məxsus olmadı, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Deyirlər, yaxşı ataların yaxşı oğulları olur. Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın işğalına ürək ağrısının, onların bir gün geri qaytarılması üçün mübarizələrinin davamını cənab İlham Əliyevdə gördük. Gördük ki, dövlətimizin başçısı kimi fəaliyyət dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib. Gördük ki, Qarabağ məsələsi bir an da unudulmayıb. Liderimizin bütün bayramlarda xalqa müraciətlərdə Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...

Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizin Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.



Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistanın dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa, hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlayacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi və tarixin 200 illik axını dəyişib göstərdi ki, analar dünyaya 200-300 ildə bir elə oğullar gətirir ki, o oğullar zamana hökm oxuya bilir...

### 90-ların səhvini 2020-də düzəldən Lider

Qarabağ 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi. Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlətmək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi. Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, evəşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu. Bunu xalq sonradan bildi, AXC-Müsavat birliyinə etimadını itirdi. Onlarin hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında məcburi köçkünlükdə əzab çəkən minlərlə insan vardı. Azərbaycanın işğal olunan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilmən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik. Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdilər.

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

Böyük itkilər verdiyimiz 44 gündə Zəfər qazandıq. Bu itkilərin də səbəbkarları onlardır-AXC-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, yaxın gələcəkdə soydaşlarımız ata-baba yurdlarına qayıtsalar da, AXC-Müsavat birləşməsinin üzvlərinin bu xalqa vurduqları maddi və mənəvi zərər heç vaxt unudulmayacaq.

### Liderimizin fikirləri gənclərimizin sosial şəbəkə manşetidir

Zərifə xanım Əliyevanın böyüdüb tərbiyə etdiyi övladı öncə ata-anadan, ailədəki dəyərlərdən, sonra isə xalqın bu ailəyə etimadından, böyük Heydər Əliyevə nüfuzundan, onun mənəvi və siyasi varisinin Heydər Əliyev yolunu uğurla davam etdirəcəyinə böyük inamından aldığı güclə böyük Liderə çevrilə bildi. Xalq öz liderinin ətrafında sıx birləşdi. Müharibədə Prezidentimizin düşmənə göstərdiyi dəmir yumruğun rəmzi mənası var idi. Bu, bütün xalqın gücünü özündə toplayan bir yumruq idi. Düşmənin üzərinə endirilən birgə həmlə idi.

Xalqın birlik, həmrəylik nümayiş etdirməsi öz Liderinə inamından, arxalanmasından irəli gəlirdi. Gənclərimizin cəbhəyə axın etməsi, səfərbərlik məntəqələri qarşısında gecəli-gündüzlü Ali Baş Komandanın əmrini gözləmələri ötən 30 ilin əvvəlindəki hakimiyyət nümayəndələri ilə müqayisə belə edilə bilməyəcək bir Liderə sahib olmağımızın nəticələri idi. Minlərlə gəncimizin böyük sərkərdənin bir əmri ilə döyüşə yollanması gənc nəslin dövlətinin başçısına etimadının göstəricisi idi. Hansı ki, Ermənistan tərəfdə vəziyyət heç də belə deyildi. Bu, baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan tərəfindən də etiraf olundu. Onun söylədiyinə görə 2020-ci ildə 44 günlük müharibədə Ermənistan ordusunun təxminən 25%-i - 11 min nəfəri fərarilik edib, döyüşlərdən qaçıb. O, Paşinyanın və özünün könüllü cəbhəyə yollanmaq üçün erməni xalqına müraciətlərinə, çağırışlarına da cəmiyyətdən tutarlı reaksiya gəlmədiyini etiraf etdi. Başqa sözlə, erməni gəncləri Paşinyanın çağırışlarını cavabsız buraxıb - zorla ordu sıralarına cəlb edilənlər isə çıxış yolunu qaçmaqda görüb.

Bəli, bütün bunlar cənab İlham Əliyevin son 20 ildə Azərbaycanda yarada bildiyi ictimai mühitin bəhrələri idi. Vətəndaşına yanaşmasının, hər yaş qrupunda olan insanlara eyni qayğı göstərməsinin, gənclər üçün yaradılan hərtərəfli şəraitin, ən əsası isə onlara vətənpərvərliyin aşılanmasının nəticələri idi. Bizim Prezidentimiz Azərbaycan gəncliyinə özü bir nümunə idi. Gənclik Liderimizin beynəlxalq kürsülərdə səsləndirdikləri fikirləri sosial şəbəkələrdə paylaşırdı. Liderimizin müharibə dövründə xarici mətbuat nümayəndələrinə verdiyi onlarla müsahibədəki qətiyyətli cavablar hər bir gəncin sosial şəbəkə manşetinə çevrilmişdi. Bu gün də elədir. Bu gün Azərbaycanda Prezientimizin fəaliyyətini, dəyərli fikirləri dərhal gənclərimizin sosial şəbəkələrdəki paylaşımlarında görmək olur. Bu, inamdır, arxalanmaq, etibar etməkdir. Bir də xalqın Liderinə sevgisidir. Bu sevgi isə düz sərhədlərimizə qədər uzanır. Ölkəmizin sərhədlərinin, ərazi bütövlüyünün qorunması üçün hər kəsin sinəsini sipər etməsini şərtləndirir.

### Müzəffər sərkərdə ilə xoşbəxt gələcəyə doğru

Bu gün Qarabağda yenidənqurma və bərpa işləri davam edir. Müharibədən dərhal sonra başlanan işlərin sürətlə aparılası soydaşlarımızın evlərinə daha tez qayıtmasına xidmət edir. Qarabağın inkişaf etdirilməsi, hər bir işğaldan azad edilmiş rayonumuzla bağlı Liderimizin fikirləri bu yurdların yaxın gələcəkdə böyük inkişafından xəbər verir.

Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər isə nəinki xalqımızın, region dövlətlərinin də gələcək inkişafına hesablanmış addımdır. Ermənilər üçtərəfli 10 noyabr Bəyannaməsində üzərlərinə düşən vəzifələrin icrasını gecikdirməyə çalışsalar da, bizim Liderimiz bütün məsələlərin həllinin öhdəsindən gələcəkdir. Çünki artıq dünyanın böyük ölkələri də bizi dinləyir, haqqın tərəfimizdə olduğunu anlayır.

Beləliklə Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına qayıtması, Zəngəzur dəhlizinin açılması, Naxçıvan blokadasının yarılması kimi gündəmdə olan məsələlərimiz yaxın gələcəkdə öz müsbət həllini tapacaqdır. Çünki bütün bunların hər biri ayrıayrılıqda Prezidentimizin diqqətindədir və görülən işlər, aparılan danışıqlar müsbət yöndədir.

Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin və xalqımıza müzəffər sərkərdə bəxş edən Zərifə xanım Əliyevanın parlaq ruhları bizimlədir. Çünki ağsaqqal, ağbircək olan yerdə Allah var. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən Prezidentimiz xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu. Nə xoşdur ki, gənclərimiz hər addımı Liderləri və dostları cənab İlham Əliyevdən öyrənirlər. Öyrənirlər ki, onlar da əsl övlad, əsl vətəndaş ola bilsinlər.

***Mətanət Məmmədova***

# Heydər Əliyev-100



# Xalqa xidmətilə zirvələri fəth edən LİDER



**Eldar İbrahimov,**
**Milli Məclisin Komissiya sədri, Professor, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü**

Dövlətin mövcudluğu, xalqın varlığı o zaman bilinir və görünür ki, o xalqın, dövlətin uzaqgörən lideri olur. Millətimiz xoşbəxt millətlərdəndir ki, böyük gücə və idarəetmə qabiliyyətinə, eləcə də xalqını bəlalardan qoruyub, dövlətini inkişaf etdirən Ulu Öndərimiz Heydər Əliyev olub. Məhz Onun bacarığı, yüksək idarəetmə qabiliyyəti nəticəsində 1991-1993-cü illərdə ölkəmizin üzləşdiyi ağır, üzücü problemlər, siyasi, iqtisadi və sosial böhranlar aradan qaldırıldı. Ümumiyyətlə, öz ali liderlik keyfiyyətləri ilə dünyanın siyasi elitasının ən uca zirvəsində qərarlaşan Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə başlıca məram və məqsədi xalqın daha firavan yaşaması, dövlətin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi olub. 1969-cu ilin 14 iyulunda Azərbaycana rəhbər seçilməsi Heydər Əliyevin məhz liderlik xüsusiyyətinin, dövlətçilik təcrübəsinin və təşkilatçılıq məharətinin təsdiqi idi. Heydər Əliyev birinci dəfə hakimiyyətə gəldiyi dövrdə Azərbaycan Respublikasının bütün sahələrdə inkişaf etdirilməsinə xüsusi diqqət göstərmişdir. 1969-1982-ci illərdə milli gəlir 2,6, sənaye məhsulu 2,7, kənd təsərrüfatı 2,3 dəfə artdı, 249 yeni iri sənaye müəssisəsi yaradıldı. Ölkənin sənaye potensialı əvvəlki 50 ildəkini iki dəfə üstələdi. Həmin dövrdə 813 min yeni iş yeri açıldı, əhalinin güzəranı qat-qat yaxşılaşdı. Respublikamızın elmi-texniki potensialı dəfələrlə artdı, 265 elmlər doktoru, 3141 elmlər namizədi hazırlandı. Ötən əsrin 80-ci illərinin əvvəllərində ən nüfuzlu ali məktəblərə respublikamızdan göndərilən gənclərin sayı ildə 1000-1400 nəfər təşkil edirdi. Hər il 800-1000 azərbaycanlı gənc isə ittifaqın nüfuzlu hərbi məktəblərində hərb sənətinin sirlərinə yiyələnirdi. Heydər Əliyevin həyata keçirdiyi titanik və kompleks fəaliyyət nəticəsində Azərbaycan ittifaq büdcəsindən dotasiya almayan iki respublikadan birinə çevrilmişdi. Ulu Öndər həmin dövrdə azərbaycanlıların keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsili üçün səylə çalışır, respublikamız üçün ayrılmış müsabiqədənkənar yerlərin sayının artırılmasını Moskvadan israrla tələb edir, əksər hallarda buna nail olurdu. 1970-ci ildə respublikadan kənara oxumağa göndərilən belə tələbələrin sayı əgər 60 nəfər idisə, 1975-ci ildə onların sayı 600 nəfərə, 1978-ci ildə 800-900 nəfərə çatmışdı. Ümummilli Lider Heydər Əliyev 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə bununla bağlı xatırlamışdı: "Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən, sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaq. Vaxt gələcək ki, nəhayət, Azərbaycan müstəqil olacaq və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər".

### Qurub, yaratmaq Ulu Öndərimizin əsas məram və məqsədi olub

Mövcud reallıq ondan ibarətdir ki, ötən əsrin 90-cı illərin əvvəllərində müstəqilliyini yenicə qazanan Azərbaycanda xaos və anarxiya hökm sürürdü. Böhranlı vəziyyəti aradan qaldırmaq gücünə malik olmayan AXC-Müsavat cütlüyü yeni -yeni səhvləri ilə ölkəni uçurumu sürükləyirdi. Ağrılı-acılı problemlərin həllinə səy göstərməkdənsə AXC-Müsavat iqtidarı küçələrə çıxıb haqlarını tələb edən əhalinin üzərinə güc strukturlarını göndərir, onları zor gücünə sakitləşdirməyə çalışırdı. 1993-cü ilin 4 iyun hadisələri mövcud böhranlı durumu daha da dərinləşdirdi. Ölkədaxili ağır vəziyyətdən istifadə edən ermənilər ardıcıl olaraq torpaqlarımızı işğal edirdilər. Ermənistandan 300 mindən çox azərbaycanlının öz doğma torpaqlarından qovulması Azərbaycanda həlli mümkünsüz görünən problemlər yaratmışdı. Ümidsizlik, cəmiyyətdə hökm sürən total apatiya, depressiya, heç bir siyasi qüvvəyə inamın olmaması - gənc müstəqil Azərbaycanın sosial-siyasi mənzərəsini təşkil edirdi. Nəhayət aydın təfəkkürlü ziyalılar, böyük xalq kütlələri vətəndaş müharibəsindən qaçmağın və ölkənin düşdüyü böhrandan çıxarması yolunu Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsində gördülər. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının "Səs" qəzeti vasitəsi ilə Ulu Öndər Heydər Əliyevə ünvanladıqları müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Dahi Öndər Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər". Nəhayət, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən konfransında Yeni Azərbaycan Partiyası təsis edildi. Konfrans iştirakçılarının yekdil qərarı ilə Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın o zamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Həmin tarixi hadisələri dəyərləndirən Ulu Öndər Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".

### Xalq öz liderinə təşəkkürünü bildirmək üçün Ona bir ad verdi -Ümummilli Lider

Dahi Öndər Heydər Əliyevin nüfuzu, xalqın Ona olan yüksək etimadı Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı.1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti faciələrdən xilas ola bildi. Dahi Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, iqtisadi, hərbi, diplomatik nailiyyətlərin əldə olunması üçün geniş və əhatəli zəmin yaradıldı. Xalq öz liderinə buna görə öz təşəkkürünü bildirmək üçün Ona bir ad verdi - Ümummilli Lider. Ümummilli Lider Heydər Əliyev əhalinin sosial-iqtisadi durumunun yaxşılaşdırılması üçün yeni iqtisadi fərmanlar imzaladı, layihələrin həyata keçirilməsi üçün qərarlar verdi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın bu gününə və gələcəyinə inamı artırdı. Bu müqavilədən sonra xeyli sayda neft-qaz sazişləri imzalandı. Neftin, qazın satışından ölkəmizə böyük həcmdə gəlirlər daxil oldu ki, bu da əhalinin sosial, iqtisadi cəhətdən firavan yaşamasına təkan oldu. Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla neft və qaz satışından əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndər Heydər Əliyev iqtisadi inkişafı təmin etməklə yanaşı, digər sahələrdə də mühüm addımlar atdı, qərarlar imzaladı. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan Respublikası ətrafında sıx birləşməsinə nail olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. 2001-ci ilin mayın 23-də imzalanan sərəncama əsasən, həmin ilin noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

### Yeni dövrün yenilməz Sərkərdəsi Cənab İlham Əliyev

2003-cü ildən Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətini, Onun layiqli siyasi varisi, Ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirir. Yenilməz Sərkərdə, Prezident İlham Əliyev Azərbaycanı Heydər Əliyev yolu ilə apararaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib. 2018-ci il prezident və 2020-ci il parlament seçkilərindən sonra ərazi bütövlüyümüzün bərpası birinci dərəcəli vəzifə kimi qarşıya məqsəd qoyulmuşdur. Bu vəzifəni Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər ordumuz uğurla icra etdi. Ərazi bütövlüyümüzün bərpa olunmasında bütün nəsillərin nümayəndələri uğurlu fəaliyyət göstərib. Döyüşlərdə böyük şücaət və qəhrəmanlıq göstərən gənclərin mütləq əksəriyyəti Cənab İlham Əliyevin ilk dəfə Prezident seçildiyi 2003-cü ildə uşaq və yeniyetmə olan insanlardır. Onlar yetişdi, onlar vətənpərvərlik və fədakarlıq göstərərək canlarından keçdilər, şəhid oldular, qazi oldular, qəhrəmanlıq göstərdilər və tarixi ədaləti bərpa etdilər. İkinci Qarabağ müharibəsində əldə olunmuş parlaq qələbə Azərbaycanın Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq olduğunu bir daha nümayiş etdirdi. Əminliklə deməki olar ki, nə qədər ki, Azərbaycan dövləti və xalqı var, Ulu Öndər Heydər Əliyev siyasəti davam edəcək.

# Heydər Əliyev yeni Azərbaycanın parlaq gələcəyini yaradıb!





Aprelin 5-də Füzuli rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində "Heydər Əliyev müasir, müstəqil Azərbaycanın memarıdır!" mövzusunda konfrans keçirilib. Əvvəlcə tədbir iştirakçıları Aprel döyüşləri şəhidlərinin xatirəsinə ucaldılan abidəni ziyarət edib, önünə gül dəstələri düzüblər.

Sonra ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, Ulu Öndərin əziz xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Konfransı giriş sözü ilə açan YAP Füzuli rayon təşkilatının sədri Almaz Həşimova ulu öndər Heydər Əliyevin şərəfli ömür yolu, zəngin dövlətçilik irsi və çoxşaxəli fəaliyyəti haqqında ətraflı danışıb. Bildirib ki, müasir Azərbaycanın xilası və müstəqil dövlət quruculuğu məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqının və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən məhz ulu öndər Heydər Əliyev olmuşdur. Biz bu gün ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin parlaq nəticəsi olaraq Azərbaycanın davamlı inkişafının şahidiyik.

Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bildirib ki, Ümummilli Liderin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrilib. Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılmasında və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynayıb.

Vətən müharibəsi şəhidi Elnur Quliyevin anası Marusa Həsənova bildirib ki, Azərbaycanda Qarabağ müharibəsi əlillərinə, veteranlarına və şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderin bu təbəqədən olan insanlara göstərdiyi qayğı, bu istiqamətdə yürütdüyü dövlət siyasəti Onun layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər kəsə məlumdur ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi təşkil edir.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən bu il ölkəmizdə "Heydər Əliyev İli" elan edilib. Ümummilli Liderin anadan olmasının 100 illik yubileyi ölkəmizdə və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur. O vurğulayıb ki, Ulu Öndərin müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi mərhələ sabitlik, tərəqqi dövrü kimi tarixə həkk olunub. Azərbaycanda uğurlu dövlət quruculuğu həyata keçirilib, bütün sahələrdə köklü islahatlar aparılıb, ölkəmizin beynəlxalq əlaqələri inkişaf etdirilib, dünyada mövqeyi möhkəmlənib.

Milli Məclisin deputatı Vüqar Bayramov qeyd edib ki, Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı əvəzedilməz xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Ümummilli Liderin həm SSRİ dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi dönəmdə görülən işlər respublikamızın qüdrətinin artmasına, Azərbaycanın tarixi nailiyyətlər qazanmasına xidmət edib.

Milli Məclisin deputatı Aqil Abbas söyləyib ki, Ulu Öndər əsl müstəqillik qazanmaq, dövlətçilik ənənələrini bərpa etmək və milli inkişafa nail olaraq sabaha inamla addımlamaq missiyasını öz üzərinə götürməklə Zəfərə aparan yolun əsasını qoymuşdur. Sabitlik və inkişaf mərhələsi kimi səciyyələndirilən 1993-2003-cü illərdə Ulu Öndərin rəhbərliyi ilə görülən işlər yeni Azərbaycanın parlaq gələcəyini inşa etmişdir. Heydər Əliyevin müstəqillik dönəmində ölkəmizə rəhbərlik etdiyi dövr, eyni zamanda, Azərbaycanı böyük Zəfərə aparan yolun başlanğıcı olmuşdur. Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, partiya sıralarına yeni qəbul olunmuş şəxslərə isə üzvlük vəsiqələri təqdim edilib.

# Yeni təyinat məhkəmə sistemində hansı dəyişikliyə səbəb olacaq?



***"Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında aparılan islahatlar günü-gündən dərinləşir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Azər Badamov bildirib. Onun sözlərinə görə, bu islahatlar məhkəmə sisteminə də sirayət olunmuşdur və məhkəmə sistemində müəyyən genişlənmələr aparılır: "O cümlədən Ali Məhkəmənin sədrinin də dəyişdirilməsi bu islahatların tərkib hissəsidir.***

Yeni təyin olunmuş Ali Məhkəmənin sədri İnam Kərimov bu sistemdə yeni yanaşmaların edilməsinə çalışacağına inanırıq. İnam Kərimov "ASAN" xidmət sistemindən gəlmiş innovasiyalar sahəsində təcrübəsi olan bir şəxsdir. Onun işlədiyi bütün sahələrdə bu yeniliklər hiss olunmuşdur".

Millət vəkili yeni sədr təyin olunan İnam Kərimovun Kənd Təsərrüfatı naziri vəzifəsində işlədiyi dövrlərdə də bu sahədə elektronlaşmanın aparılması, şəfaflığın təmin edilməsi istiqamətində çox ciddi addımlar atdığını bildirib: "Hesab edirəm ki, İnam Kərimovun sədrliyi zamanı məhkəmə sistemində də elektronlaşmanın aparılmasına və şəfaflığın yaranmasına, ədalətin daha dolğun, düzgün şəkildə təmin olunmasında yeni bir səhifə aparılacaqdır. Həmçinin o, bu sistemdə yeni dövrün reallıqlarına uyğun bir şəkildə fəaliyyətini davam etdirəcəkdir".

***Banuçiçək Hüseynli***

# "Ermənistan öz məğlubiyyətlərindən nəticə çıxarmalıdır"



***"Bəlkə də 44 günlük müharibədə fərarilik edən erməni əsgərlərinin sayı Anna Akopyanın etiraf etdiyindən qat-qat çox olub. Həmin dövrdə erməni zabitlərinin cəbhə xəttindən qaçıb gizləndikləri barədə vaxtaşırı sosial şəbəkələrin erməni seqmentində məlumat yayılıb. Hətta bir erməni generalı döyüş bölgəsində təcili tibbi yardım maşınından yaralı erməni əsgərlərini düşürərək həmin maşına minib döyüş bölgəsindən qaçmışdı. Bunun özü göstərir ki, Ermənistan normal silahlı qüvvə yarada bilməyib". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib.***

Onun sözlərinə görə, işğal edilmiş torpaqda heç vaxt vətənpərvər olmaq olmaz: "Ümumiyyətlə, Ermənistanın problemi başqa xalqların torpağına, tarixinə, mədəniyyətinə iddia etməsidir. Ermənistan cəmiyyətinin üzdə olanları həmişə ən üstdə olduqlarını, kimdə yaxşı nə varsa onlara məxsus olduğunu təlqin etməyə çalışıblar. Bu isə milli düşüncədə bir qüsurluluq sindromu yaradıb. Hələ də Ermənistan 44 günlük müharibənin təsirindən ayıla bilmir. Başqa dövlət olsaydı, öz qonşuları ilə normal münasibətlər qurmağa çalışardı. Ermənistan indi də başqa dövlətlərə əl açıb hərbi yardım istəyir və hələ də Azərbaycanla müharibəyə can atır. Başa düşmür ki, bu dəfəki döyüş 44 gün deyil, çox qısa bir müddət çəkəcək və Ermənistanın tamamilə məhv olması ilə nəticələnəcək. Azərbaycanın başqa torpaqlarda gözü yoxdur. Ona görə də bizim Polad Həşimov, Mübariz İbrahimov kimi cəngavərlik göstərən 10 minlərlə əsgər və zabitimiz oldu. Ermənistan isə öz tarixindən, ard-arda məğlubiyyətlərindən nəticə çıxarmalıdır. Başqa xalqın irsinə iddia etməklə xoşbəxtlik əldə olunmaz".

***Ləman Əlizadə***

# Azərbaycan gəncləri Heydər Əliyev irsini dərindən öyrənməlidirlər

## *YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib*



***"Heydər Əliyev İli" çərçivəsində aprelin 5-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib. Azərbaycan Dövlət Pedaqoji Universitetində keçirilən tədbirdə YAP-ın Səbail rayon təşkilatının üzvü olan fəal gənclər iştirak ediblər. Əvvəlcə ADPU-nun binasında ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb. Sonra ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.***

Kinorejissor, ssenarist, Xalq artisti Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filmi nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev bildirib ki, ulu öndər Heydər Əliyev uzaqgörən və müdrik şəxsiyyətdir. Heydər Əliyevin bütün həyatını Azərbaycan xalqına həsr etdiyini deyən təşkilat sədri qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi ümummilli liderimizdir. Azərbaycan bu gün də Heydər Əliyev siyasətinin uğurlarından bəhrələnir. O, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunduğunu xatırladıb. Diqqətə çatdırılıb ki, Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən "Heydər Əliyev İli" ilə əlaqədar Tədbirlər Planı hazırlanıb və İdarə Heyətinin qərarı ilə təsdiq edilib. Bu tədbir də həmin Plana uyğun olaraq təşkil edilib.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxışında bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr dövlətçiliyimizin və xalqımızın intibahında tarixi bir mərhələni təşkil edib: "Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanışın formalaşması dövrü oldu. Hələ sovetlər dövründə Heydər Əliyev müstəqilliyimizin təməllərini atmışdı. 1970-ci illərdə Azərbaycan SSR-nin Konstitusiyasında dövlət dili kimi Azərbaycan dilinin təsbit olunması, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması, azərbaycanlı gənclərin keçmiş ittifaqın nüfuzlu ali təhsil müəssisələrinə təhsil almağa göndərilməsi, onların peşəkar milli kadrlar kimi yetişdirilməsi o dövr üçün Ulu Öndərin xalqımızın qarşısında böyük xidmətləridir".

Onun sözlərinə görə, 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmiz məhv olmaq təhlükəsindən qurtardı. Ümummilli lider Heydər Əliyevin müasir və müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir ölkəyə çevrilib. Bu heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna yönəltmək üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq.

A.Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyev bu gün Heydər Əliyev yolunu uğurla davam etdirir: "Ulu öndər Heydər Əliyev hər zaman Azərbaycan gəncliyinə qayğı ilə yanaşıb, gənclərin inkişafını xüsusi diqqət mərkəzində saxlayıb. Gənclərimiz Heydər Əliyevin zəngin irsini dərindən öyrənməli, Ulu Öndərin ideyalarına həmişə sadiq olmalıdırlar".

Sonra çıxış edən kinorejissor, ssenarist, Xalq artisti Vaqif Mustafayev ulu öndər



Heydər Əliyevlə görüşlərini və xatirələrini gənclərlə bölüşüb: "Heydər Əliyev bütün varlığı ilə xalqını, Vətənini sevirdi, doğma Azərbaycanın yüksəlməsi üçün var qüvvəsi ilə çalışırdı. Bu böyük şəxsiyyətin iradəsi, zəkası, uzaqgörənliyi nəticəsində tarixin gedişi dəyişdi. Azərbaycan bütün çətinliklərdən çıxaraq inkişaf yoluna qədəm qoydu, bütün dünyada tanınmağa başladı. Heydər Əliyev haqqında keçmişdə danışmaq mümkün deyil, O, hər zaman bizimlədir, əbədiyaşardır!".

V.Mustafayev həmçinin ulu öndər haqqında çəkdiyi filmlərdən də ətraflı bəhs edib, Heydər Əliyevin sənətə və sənətkarlara yüksək qiymət verdiyini vurğulayıb.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru, professor Cəfər Cəfərov çıxışında ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlərindən bəhs edib. Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edən C.Cəfərov Heydər Əliyevin zəngin irsinin hər zaman öyrəniləcəyini vurğulayıb. C.Cəfərov Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başlatdığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Rektor ADPU-da da "Heydər Əliyev İli" ilə bağlı Tədbirlər Planının hazırlandığını və plana uyğun olaraq silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb. O, gənclərə Heydər Əliyev irsini dərindən öyrənməyi tövsiyə edib. Daha sonra gənclərin sualları cavablandırılıb.

# Zaqatalada "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin öyrənilməsi və yeni nəslə aşılanması məqsədilə Zaqatala rayonunda tədbir keçirilib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.



Tədbiri giriş sözü ilə açan YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov ulu öndər Heydər Əliyevin ölkəmizi müstəqilliyini itirmək, dünya xəritəsindən silinmək təhlükəsindən xilas edərək inkişaf yoluna çıxardığını bildirib. O qeyd edib ki, Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın tərəqqisi üçün geniş imkanlar yaradıb, torpaqlarımız işğaldan azad edilib, ölkəmiz möhtəşəm nailiyyətlərə imza atıb.

Çıxış edən Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə müstəqil Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi və əbədiyaşar ideyalarının xalqımızın firavan həyatının təmin olunmasına, dövlətimizin güclənməsinə misilsiz töhfələr verdiyini, Azərbaycanı zirvələrə yüksəltdiyini qeyd edib.

YAP İdarə Heyətinin üzvü Bayram Aslanov vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik daim özünü göstərib. O, Azərbaycanın müstəqilliyini təmin etmək və ölkəmizi tərəqqi yoluna çıxarmaq kimi ağır və məsuliyyətli işin öhdəsindən müdrik siyasəti ilə gəlib.

Milli Məclisin deputatı Kamilə Əliyeva qeyd edib ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı. Ulu Öndər xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisi olaraq adını tarixə qızıl hərflərlə yazdırdı. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov vurğulayıb ki, Azərbaycan və türk dünyasının dahi oğlu Heydər Əliyev tarixi şəxsiyyətlər sırasında öz layiqli yerini tutub.

Partiya fəalı Tahir Məmmədov, şəhid Zəfər Murtuzəliyevin bacısı Mehparə Mirzəyeva, Vətən müharibəsi qazisi Nurlan Mazanov isə çıxışlarında vurğulayıblar ki, ulu öndər Heydər Əliyevin şərəfli ömür yolu Vətənə və xalqa sədaqətli xidmət nümunəsidir. Bu gün Azərbaycanın böyük uğurlara imza atması məhz ulu öndər Heydər Əliyevin ideyalarının əbədiyaşar olduğunu göstərir.

Tədbirdə Yeni Azərbaycan Partiyası sıralarına yeni qoşulmuş şəxslərə üzvlük vəsiqələri təqdim olunub. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı fəxri fərman ilə təltif edilib.

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.



2023-cü il aprelin 5-də YAP Oğuz rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Şəki Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.




Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda partiya həyatında fəal iştirak edən gənclərə fəxri fərmanlar təqdim edilib.

# Heydər Əliyev-100

**_Üstün zəkaya, nadir siyasi qabiliyyətinə və mükəmməl dövlət idarəetməsinə görə ad qazanmış Ulu Öndər Heydər Əliyev nəinki postsovet məkanının, nəinki Türk dünyasının, eləcə də bütün dünyanın diqqət mərkəzində idi. Onun hadisələri dolğun proqnozlaşdırmaq qabiliyyəti və dərin düşüncəsi sayəsində Azərbaycan bu qədər güclənə və özünü təsdiqləyə bildi. Bu gün bütün azərbaycanlılar Azərbaycan dövlətinin varlığı üçün o böyük insana əbədi olaraq borcludurlar._**




# Üstün zəkanın misilsiz xidmətləri

*“Səs” qəzeti redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "dəyirmi masa"lara start verilib*

## DƏYİRMİ MASA

Ümummilli Lider Heydər Əliyevin mükəmməl analiz qabiliyyəti, dövlətçilik təcrübəsi, uzaqgörənliyi ona ölkəmizi idarə etdiyi dövrdə ən obyektiv və optimal qərarlar verməyə imkan yaratdı. Dövlətçilik bacarığı və respublika təsərrüfatını dərindən bilməsi qarşıya qoyulmuş məqsədlərə çatmasında ona kömək oldu.

”Səs” qəzetinin redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş ”dəyirmi masa” təşkil olunub. ”Dəyirmi masa”dakı müzakirələrə Milli Məclisin komitə sədri Tahir Rzayev, Milli Məclisin komitə sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Azər Badamov, Komitə sədrinin müavini Jalə Əliyeva, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Asif Əsgərov, Yeni Azərbaycan Partiyası Qaradağ Rayon təşkilatının sədri Qafar Əliyev, Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının Gənclər Birliyinin fəalı Fərid Mustafayev iştirak ediblər.

**Dəyirmi masa söhbətini giriş sözü ilə ”Səs” qəzetinin siyasət şöbəsinin müdiri İlham Əliyev** açdı. O qeyd etdi ki, ”Səs” qəzeti cəmiyyətin maraq dairəsində olan ən aktual, əhəmiyyətli mövzular çərçivəsində hər zaman ”dəyirmi masa”lar təşkil edib və bu masa ətrafındakı söhbətlər həmişə maraqla qarşılanıb. Budəfəki ”dəyirmi masa” söhbətinin mövzusu isə adı Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazılan Ümummilli Lider Heydər Əliyev və onun Azərbaycanın taleyindəki əhəmiyyətli xidmətləridir: ”Cənab Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü il “Heydər Əliyev İli” elan edilib. Ümummilli Lider Heydər Əliyevin istər sovet hakimiyyəti illərində - 1969-cu ildən başlayaraq Azərbaycanın birinci katibi vəzifəsində çalışdığı zamanda, istərsə də 1993-cü ildə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş verən dönüş, inkişaf, eləcə də, ölkəmizin dünya məkanında özünəməxsus yer tutması onun məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsidir. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə ölkəmizdə siyasi böhran yaşandığı, vətəndaş müharibəsi təhlükəsi yarandığı, Ermənistanın təcavüzünün gücləndiyi bir vaxtda siyasi hakimiyyətə qayıdaraq Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atdı. Bu gün qonaqlarımızla Ulu Öndərin xatirəsini yad etməklə yanaşı, onun Azərbaycanın müstəqilliyi uğrunda həyata keçirdiyi işlərdən danışacağıq”.

**Milli Məclisin komitə sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Azər Badamovun** sözlərinə görə, Ulu Öndər xalqımızın yaddaşında Azərbaycanın qurucusu kimi qalıb və bu, hər zaman belə olacaq. Dəyirmi masa ətrafında bugünkü Azərbaycan dövlətinin mövcudluğunun məhz Ümummilli Liderin adı ilə bağlı olduğundan danışan deputat bildirdi: “Heydər Əliyevin ən böyük xidmətlərindən biri də bizə özündən sonra Azərbaycanı layiqincə idarə edəcək bir siyasi varis bağışlamasıdır. O öz müraciətində də bu barədə demişdi, xalqı əmin etmişdi ki, İlham Əliyev xalqı öz ətrafında sıx birləşdirəcək siyasətçidir. Həqiqətən də elə oldu. Heydər Əliyev ölkəmizdə çox yüksək həmrəylik yaradıb, dövlətçiliyimizin təməlini daha da möhkəmləndirib. II Qarabağ Müharibəsi zamanı Prezidentimiz İlham Əliyevin hər bir sözü xalqın şüarına, həyat fəlsəfəsinə çevrildi. Xalq və ordunun birliyi bizim qələbəmizə səbəb oldu.

Ümumiyyətlə, Azərbaycanın çox çətin dövrlər yaşamış gənc ölkə olduğunu nəzərə alsaq, görərik ki, Ümummilli Lider hakimiyyətə gəlməsəydi, xalqımız bugünkü firavan həyatını yaşaya bilməzdi. Ulu Öndərin məhz dahiliyi, təcrübəsi, uzaqgörənliyi, xalqa, Vətənə olan məhəbbəti Azərbaycanı bugünkü inkişafa gətirib çıxarıb. Azərbaycanın əsl müstəqilliyi 1993-cü ildə başladı. Bu 30 ildə Azərbaycan dünya dövlətləri arasında öz boyunu göstərdi, yerini tutdu. Ulu Öndərin açdığı yolda onun siyasi varisi İlham Əliyev əminliklə addımladı, xalqı da daim irəli apardı. Xalqımız Ulu Öndərlə fəxr edir və yaddaşında yaşadır. Ümummilli lider Heydər Əliyevin sovet dövründə Azərbaycana rəhbərlik etməsi tariximizdə unudulmaz izlər buraxıb. Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə yalnız xalqına xidmət edib. Ümummilli Liderin dahiliyi, böyüklüyü, liderliyi tək ölkəmiz deyil, dünya tərəfindən də tanınıb, qəbul edilib. Ulu Öndər hara getməyindən asılı olmayaraq orada Azərbaycanı yüksək səviyyədə təmsil edib, bütün dünya ölkələri də dahi şəxsiyyətə hər zaman saygı və hörmətlə yanaşıb”.

**Milli Məclisar siyasət komitəsinin sədri Tahir Rzayev** öz çıxışında Ümummilli Liderin misilsiz xidmətlərindən bəhs edib: ”Ümummilli Lider Heydər Əliyev Azərbaycanı çətin vəziyyətdən inkişafa doğru apardı, qeyri-sabitlikdən sabitliyə doğru apardı. Onun Azərbaycana rəhbərlik etdiyi illərə ekskursiya etsək görərik ki, qısa zaman kəsiyində onun bacarığı, uzaqgörənliyi sayəsində Azərbaycan inkişaf etdi. Azərbaycan o qədər sürətlə dəyişirdi ki, 80-ci illərdə Brejnev Bakıya gələndə demişdi ki, Azərbaycan iri addımlarla irəliləyir, inkişaf edir. O bu ifadəni heç bir sovet respublikası haqqında deməmişdi. Çünki Azərbaycan Heydər Əliyevin rəhbərlik etdiyi dövrlərdə çox inkişaf etmişdi. Ulu Öndərin fəaliyyəti ilə Azərbaycançılıq ideyalarının inkişafı, tərəqqisi Azərbaycanın bu günə gəlib çıxmasında, inkişafında, beynəlxalq aləmdə tanınmasında müstəsna rol oynayır. Heydər Əliyev hakimiyyətə gələndə kənd təsərrüfatını inkişaf etdirmək, sənaye potensialını artırmaq kimi bir çox mühim işlər gördü, sənayenin inkişafına rəvac verdi. Onun sayəsində Azərbaycan 14 ölkədən qabağa keçdi, taxıl, heyvandarlıq, pambıqçılıq sahələrində ciddi artımlar müşahidə olundu”.

Millət vəkili bildirib ki, Heydər Əliyevin Azərbaycan üçün müstəsna xidmətlərindən biri də Cəmşid Naxçıvanski hərbi leseyinin açılması idi: “O bunun üçün çox mübarizə apardı. Çünki azərbaycanlı hərbçilərin yetişdirməyin vacibliyini bilirdi. O vaxtadək bizim gənclərimi ölkədən xaricdə təhsil alırdılar. Heydər Əliyev Naxçıvanski hərbi liseyini burada yaratmaqla bugünkü qələbələrimizə yol açdı. Çox çətin iş idi bu məktəbi açmaq. Baş katibdən razılıq almaq lazım idi. Çox o dövrdə buna böyük maneələr vardı. Bizim gənclərimiz Heydər Əliyev kimi böyük insanı öyrənmək üçün çox böyük gedişlər etməlidir, haqqında çox oxumalıdır”.

**Milli Məclisin Ailə, Qadın, uşaq məsələləri komitəsinin sədr müavini, filologiya elmləri doktoru, professor Jalə xanım Əliyeva** çıxış edərək bildirdi ki, Azərbaycan Ulu öndər Heydər Əliyevin dünyaya gəlişinin yüzüncü ildönümünü böyük bir məhəbbət və fəxarətlə qeyd edir: “Onu sadəcə doğum və ölüm günündə deyil, hər an, hər saat minnətdarlıqla anırıq. Və təbii ki, dünya durduqca, müstəqil Azərbaycanımız durduqca, qədirbilən xalqımız durduqca onu heç unutmayacaq, onun xatirəsinin işığına toplaşacaq, ona minnətdar olacağıq.

1969-cu ilin iyul ayında respublikanın rəhbəri seçilən Heydər Əliyev, cəmi bir neçə aydan sonra o vaxtkı Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində nitq söylədi! Bəli, mən bu cümlənin sonuna nidanı təsadüfən qoymadım. Həmin dövrdə belə bir addım, həqiqətən, böyük bir cəsarət istəyirdi və ən başlıcası millilik, soy-kökə bağlılıq anlamına gəlirdi. Həmin tarixi günü Heydər Əliyev tam 25 ildən sonra, BDU-nun 75 illiyinə həsr edilən iclasda artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi belə xatırlayırdı: “Universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, ana dilimdə, Azərbaycan dilində danışdım. Bu böyük sensasiya kimi qarşılandı. Nə cür olur ki, sovet respublikasının rəhbəri, Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər.”

Sovetləşmə isə bütün SSRİ məkanında sürətlə davam edirdi. Və belə bir zamanda - 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyası hazırlanarkən, respublikanın rəhbəri Heydər Əliyev, şəxsən özü yaradıcı ittifaqlara xəbər göndərməli olmuşdu ki, Konstitusiyaya Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması barədə xüsusi maddə salınmasını tələb etsinlər. Nəticədə, Konstitusiyada, Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir - maddəsi təsdiq olundu. Mən bir daha çox əhəmiyyətli və həssas bir məqamı qabartmaq istəyirəm. Bu addım, bu cəsarətli addım müstəqil bir ölkədə deyil, milli hüquq və azadlıqların məhdudlaşdırıldığı, milli köklərin unutdurulmağa çalışıldığı, totalitar imperiyaya bağlı olan bir ölkədə, sovet respublikası olan Azərbaycanda atılırdı. İllər keçəcək, 1995-ci ilin oktyabr ayında Azərbaycan Milli Elmlər Akademiyasında dilimizlə bağlı olaraq keçirilən ümumrespublika müzakirəsində ulu öndər o gərgin mübarizəni və qələbəni belə xatırlayacaqdı: “Xatirimdədir, o vaxt başqa respublikaların rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Onlar bizə mane olursunuz. Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu, o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə oldu”.

Bu tarixi nitqin söyləndiyi binada - Milli Elmlər Akademiyasında Ulu Öndərin rəhbərliyi altında dilimizin adı ilə bağlı aparılan gərgin müzakirələr də həmin gün tarixilik qazandı. Dilimizin türk dili, azəri-türk dili, türkcə, azəri türkcəsi, Azərbaycan türk dili və b. kimi adlandırılmasını təklif edənlər və bu mülahizələrini xalqın etnosu, etnik mənşəyi, etnik mənsubiyyəti ilə əlaqələndirənlər var idi və bunu da deyim ki, özlüyündə onlar da haqlı idilər. Ulu öndər hər kəsi dinlədikdən sonra ayağa qalxdı və dedi: “Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda, biz gün deməliyik ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən, həm fəlsəfi, həm Azərbaycanın dövlətçiliyi nöqteyi-nəzərindən, ölkəmizin bu günü və gələcəyi nöqteyinəzərindən düz deyil”. Həmin gün keçirilən müzakirələri diqqətlə izləyən Azərbaycan vətəndaşları öndərin çıxışını düzgün qiymətləndirməyi bacardılar və bir neçə gündən sonra keçirilən referendumda Azərbaycan Respublikasının ilk Konstitusiyasına və bu Konstitusiyada Azərbaycan dili üçün təsbit olunan taleyüklü məsələlərə “hə” dedilər”.

Dəyirmi masa söhbətinin davamı sabahkı sayımızda...

***Lalə Mehralı***



# Sülh və inkişafa xidmət edən diplomatik əlaqələr: Azərbaycan-Malayziya

***Bu gün Azərbaycan dünyanın ən nüfuzlu və sabit inkişaf etməkdə olan ölkələri arasında öz yerini kifayət qədər möhkəmləndirib. Bu da, təbii ki, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin formalaşdırdığı uğurlu daxili və xarici siyasət, eləcə də son 19 ildə Prezident İlham Əliyevin yürütdüyü milli maraqlara söykənən siyasi xəttin sayəsində mümkün olub.***

Xüsusi olaraq vurğulamaq lazımdır ki, iki il əvvələ qədər Azərbaycan dünyada Cənubi Qafqazın iqtisadi və hərbi gücü, nəhəng enerji və nəqliyyat infrastrukturlarının müəllifi, regionda söz sahibi olan aparıcı dövlət kimi tanınırdı. 2020-ci ilin Vətən müharibəsində isə bunların sırasına biri də əlavə olundu: Cənubi Qafqazın qalib dövləti. 44 günlük müharibədə qazanılan qələbə Azərbaycana dünyada olan ehtiramı daha da gücləndirdi, dövlətimizin nüfuzunu daha da artırdı. Azərbaycan öz gücü ilə tarixi ədaləti bərpa edib və yeni reallıqlar yaradıb. Bu isə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. O cümlədən Azərbaycanla Malayziya arasında yaxın münasibətlər mövcuddur və siyasi, diplomatik əlaqələrimiz yüksək səviyyədədir. Bu əlaqələrin təsdiqi

## AZƏRBAYCAN VƏ MALAYZİYA LİDERLƏRİ ARASINDA MƏKTUB MÜBADİLƏSİNİN OLMASIDIR

Azərbaycan Prezidenti İlham Əliyevin Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha ünvanladığı məktubda deyilir: "Əlahəzrət, Azərbaycan Respublikası ilə Malayziya arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, dost xalqınıza ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram".

Məktubda o da vurğulanır ki, iki ölkə arasında dostluq münasibətləri daha da möhkəmlənəcək: "Biz Azərbaycan ilə Malayziya arasında dostluq münasibətlərinə böyük əhəmiyyət veririk. Ötən otuz illik dövr ərzində dövlətlərarası əlaqələrimizin inkişaf dinamikası, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişlənməsi bizi sevindirir. Ölkələrimizin beynəlxalq təsisatlar, xüsusilə də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlığını vurğulamaq istərdim.

Bu gün ölkələrimiz arasında əlaqələrin daha da inkişafı üçün yaxşı imkanlar vardır. İnanıram ki, mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə dostluq münasibətlərimizi, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımızı bundan sonra da dərinləşdirəcəyik. Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Malayziya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram".

## MALAYZİYANIN KRALI: "Malayziya ilə Azərbaycan arasında sıx səmimi münasibətlər mövcuddur"

Qeyd edək ki, Malayziyanın Kralı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni Almarhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billahın Azərbaycan Prezidenti İlham Əliyevə məktub ünvanlayıb. Ünvanladığı məktubda deyilir: "Zati-aliləri, 1993-cü il aprelin 5-də Malayziya ilə Azərbaycan Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü münasibətilə Kraliça ilə birlikdə Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq. Son 30 il ərzində Malayziya ilə Azərbaycan arasında geniş əməkdaşlıq sahələrində qarşılıqlı hörmət və maraq doğuran məsələlərdə ortaq dəyərlər prinsipinə əsaslanan sıx səmimi münasibətlər mövcuddur. Biz ürəkdən inanırıq ki, dövlətlərimiz arasında əməkdaşlıq gələcək illərdə də genişlənərək, ölkələrimizin və xalqlarımızın rifahı naminə ikitərəfli münasibətlərin yeni sahələrini əhatə edəcək. Fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı və rifah, həmçinin xalqlarımıza davamlı sülh, tərəqqi və firavanlıq arzulayırıq".

## 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ MALAYZİYAN AZƏRBAYCANIN HAQQ İŞİNİ DƏSTƏKLƏYİB

Malayziya ilə Azərbaycan arasında münasibətlər yüksələn xətlə inkişaf edir. Çünki iki ölkə arasında mövcud əlaqələrin dostluq və qarşılıqlı anlaşma şəraitində, müsbət xətlə inkişaf edir. Belə ki, həyata keçirilən yüksək və müxtəlif səviyyəli qarşılıqlı səfərlər, ölkələr arasında siyasi, iqtisadi, investisiya, turizm və digər sahələrdə əməkdaşlıq Azərbaycan ilə Malayziya arasında əməkdaşlığın daha da genişləndirilməsinə təkan verir. Məhz bu əlaqələrin genişlənməsinin nəticəsidir ki, 44 günlük İkinci Vətən müharibəsində Malayziya Azərbaycanın haqq işini dəstəkləyib. Bu həm də Malaziyanın mətbuatında da geniş şəkildə bildirilib.

MALAYZİYA QƏZETİ: "Azərbaycan sülh, yaxşı qonşuluq və regional əməkdaşlığın qətiyyətli müdafiəçisidir"

Malayziyanın "Utusan Malaysia" qəzeti Azərbaycanın bu ölkədəki səfiri Qaley Allahverdiyevlə müsahibə əsasında geniş məqalədə 1980-ci illərin sonundan etibarən Ermənistan tərəfindən ölkəmizə qarşı ərazi iddiaları, bu iddiaların sonradan silahlı zorakılığa çevrilərək Dağlıq Qarabağ və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması ilə nəticələndiyini, Azərbaycan xalqının böyük müharibə məşəqqətləri ilə üzləşdiyini, o cümlədən Xocalı soyqırımı kimi ağır sınağa məruz qaldığını qeyd edib. Buna baxmayaraq, xalqımızın haqlı mübarizəsinin Azərbaycan Prezidentinin rəhbərliyi altında qələbə ilə yekunlaşdığını vurğulayan diplomat deyib: "Hələ müharibənin ilk günlərindən etibarən, - haşiyə çıxaraq qeyd edim ki, biz azərbaycanlılar buna Vətən müharibəsi deyirik, - Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə aydın şəkildə bildirmişdi ki, Ermənistan hər hansı şərt irəli sürmədən işğal etdiyi ərazilərimizdən çıxdığı təqdirdə, müharibə dayanacaq. Rusiya Federasiyasının təşəbbüsü ilə 9-10 noyabr 2020-ci il tarixində Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanatla atəşkəs əldə olundu. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan hökuməti tərəfindən mülki və döyüş nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti üçün yollar minalardan təmizlənir, bərpa işləri aparılır. Biz sülhün, yaxşı qonşuluğun və regional əməkdaşlığın qətiyyətli müdafiəçisiyik. Azərbaycan Prezidentinin 11 yanvar tarixində Moskvada keçirilmiş görüş zamanı ifadə etdiyi fikirlərdən birini sitat gətirmək istəyirəm. Azərbaycan Prezidenti vurğulamışdır ki, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik".

***RƏFİQƏ KAMALQIZI***

## Yeni Azərbaycan Partiyası "Heydər Əliyev İli" çərçivəsində jurnalistlər arasında fərdi yazı müsabiqəsi elan edir

*Yeni Azərbaycan Partiyası "Heydər Əliyev İli" çərçivəsində jurnalistlər arasında "Heydər Əliyev və yeni Azərbaycan" mövzusunda fərdi yazı müsabiqəsi elan edir*

**Müsabiqənin məqsədi:**
Ümummilli lider Heydər Əliyevin həyat yolunun, xalqımız qarşısında müstəsna xidmətlərinin, zəngin dövlətçilik irsinin və əbədiyaşar ideyalarının hərtərəfli tədqiq olunaraq geniş ictimaiyyətə çatdırılması və yeni nəslə aşılanması, jurnalistlərin yaradıcılıq fəaliyyətinin stimullaşdırılması.

**Müsabiqəyə təqdim olunacaq yazılar aşağıdakı nominasiyalardan biri üzrə hazırlanmalıdır:**
- Tənəzzüldən intibaha: SSRİ dönəmində Azərbaycanın yüksəlişi
- Qurtuluşdan tərəqqiyə: müstəqillik dövründə Heydər Əliyevin yeni və müasir dövlət quruculuğu
- Tərəqqidən Zəfərə: Heydər Əliyev ideyaları ilə yeni zirvələrə doğru

**Müsabiqədə iştirak**
Ən azı bir il müddətində kütləvi informasiya vasitələrində fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

**Müsabiqəyə təqdim olunan yazılara aid tələblər**
1. Yazının mövzusu təklif olunmuş nominasiyalardan birinə uyğun olmalıdır;
2. Müsabiqə iştirakçısı yalnız bir nominasiya üzrə yazı təqdim edə bilər;
3. Müsabiqə iştirakçılarının yazıları çalışdıqları mətbuat orqanlarında dərc olunmalıdır.

**Yazıların qəbulu qaydaları**
1. Yazı mətbu orqanda dərc olunduğu təqdirdə nəşrin 1 nüsxəsi, internet media resursunda dərc olunduğu halda isə müvafiq keçid – link təqdim edilməlidir;
2. Yazının elektron variantı (Times New Roman (12) şriftində - CD diskdə) - 1 nüsxə
3. Yazının A4 formatda çap olunmuş variantı (müəllifin imzası göstərilməlidir) - 4 nüsxə
4. Yazıların həcmi: A3 formatında 1 səhifə (9-11 min işarə)

**Tələb olunan sənədlər**
Şəxsiyyət vəsiqəsinin surəti
Jurnalist vəsiqəsinin surəti
Şəxsi bank rekvizitləri (hesabın aktiv olması təsdiqlənməlidir)

**Qiymətləndirmə meyarları:**
- mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma;
- yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi;
- jurnalist obyektivliyi və məsuliyyəti, dövlətçilik maraqlarının müdafiəsi.

Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması
Hər bir nominasiya üzrə I, II və III yerlər olmaqla üç iştirakçı mükafatlandırılacaq.
I yer - 700 manat
II yer - 500 manat
III yer - 300 manat

Müsabiqədə iştirak üçün yazıların qəbulu 1 iyun 2023-cü il saat 18:00-dək davam edəcəkdir.

Tələb olunan sənədlər Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına (Bakı şəhəri, S.Senyuşkin küçəsi 26) təqdim edilməlidir.

**Əlaqə telefonları:** 012 490 80 33 / 077 440 02 00
**Elektron ünvan:** yapmetbuat@mail.ru

# Oruclu insanın bədənində nələr baş verir?

**- Sahurda qidalanmamıza necə diqqət etməliyik? Süfrədə nələr olmalıdır?**

- Sahurda duzlu qidalara üstünlük vermək olmaz. Bura pendir, şoraba, konservləşdirilmiş məhsullar, işlənmiş ət məhsulları və s. aiddir. Nəzərə alsaq ki, biz gün ərzində susuz qalırıq və bu susamağa gətirib çıxaracaq, ona görə də duzlu qidalardan uzaq durmalıyıq. Duzsuz kəsmik, kərə yağı kimi kimi ağartı məhsulları var ki, bunlardan istifadə etmək lazımdır.

Bundan əlavə sahur qidaları içində başda yumurta gəlir. Yumurta əvəzolunmaz yağ turşuları ilə zəngindir. Yumurtada olan xolin beyin fəaliyyətinin işləməsinə gətirib çıxarır. Nəzərə alsaq ki, orucluqda insanlar saatlarla ac qalır və iş fəaliyyəti ilə məşğul olur ona görə də yumurta çox vacibdir. Həm də yumurta gün ərzində insanları tox tutur. Yumurtadan başqa sahurda zeytun yağında olan zeytun olsa yaxşı olar. Bununla yanaşı,



*Qida üzrə baş mütəxəssis Ağa Salamovun SİA-ya verdiyi müsahibəni təqdim edirik:*



meyvə quruları da lazımdır.

Sahur üçün yaxşı olar ki, kəpəkli undan evdə bişmiş çörək olsun. Çünki burada rüşeym qismi ayrılmır və zülal tərkibli olur. Yəni, qida daha faydalı olur. Dükan çörəkləri boş karbohidratdır. Onların tərkibində heç bir vitamin və mineral yoxdur.

Liflərlə zəngin olan qidalar da sahurda vacibdir. Bunlara mövsümi tərəvəz və meyvələr aiddir. Çünki bağırsaq florasının bir nömrəli dostu liflərdir. Lifli qidalar bağırsaqda tez həzm olunduğundan köp və şiş yaratmır. Bu da insanın özünü gün ərzində rahat hiss etməsinə gətirib çıxarır və bağırsaqlarda serotonin hormonunun ifrazına dəstəkçi olur ki, bu da xoşbəxtlik hormonudur. Bununla da insan özünü daha gümrah hiss edir. Bəzən olur ki, insanlar oruc olduqda çox aqressiv və əsəbi olur. Bu da sahurda düzgün qidalanmama ilə əlaqəlidir.

**- Bəs, iftar zamanı qida rasionumuza nələr daxil etməliyik?**

- İftar su və xurma ilə açılmalıdır. Yaxud əncir də olar. İnsan gün ərzində susuz qaldığı üçün qanda müəyyən qədər laxtalanma gedir. Su ilə açılan iftar da qanda durulanma aparır. Ona görə də sahur və iftarda saf su içilməlidir ki, qan laxtalanmasın.

Daha sonra şorbalar içə bilərik. Lakin tomatlı şorbalardan uzat durmalıyıq ki, bizi narahat etməsin. Tomatın yerinə pomidor əlavə etmək olar. Şorbadan sonra isə bir qədər fasilə vermək lazımdır. Həmən ikinci yeməyə keçmək düzgün deyil. Nəzərə almaq lazımdır ki, mədə bu ərəfədə çox qida qəbul etmək qabiliyyətində deyil. Birdənbirə mədəni yükləmək olmaz.

Şorbadan 15-20 dəqiqə sonra ana yemək olan ət, toyuq və balıq kimi məhsullara keçə bilərik. Xüsusilə balıq yüngül məhsul olduğu üçün faydalı və yüngül qidadır. Sadəcə bunlar qızartma olmalı deyil. Çünki qızartma yeməklər xərçəng hüceyrəsinin yaranması üçün təhlükəlidir. Daha çox soba və qazan yeməklərinə üstünlük versinlər. Az su ilə pörtləmə ideal seçim ola bilər.

Bir də bu məhsullar təzə olmalıdır. Oruc tutan insanın yeməyini günortadan bişirib axşama saxlamaq olmaz. Bir şərtlə saxlaya bilərlər ki, yemək bişən kimi tez soyuduluraq soyuducuya qoyulsun və axşam bir dəfə isidilib istehlak edilsin.

**- İmsak vaxtı oyanmasaq, ona kimi az-az yemək yesək və imsakda oyanmasaq olar?**

- Bəzən oruc tutan insanlar yatmır. Bu da yorğunluq və yuxu porblemlərinə səbəb olur. Yaxud özləri-ni yaxşı hiss etmirlər. Yuxu qidalanmada önəmli faktorlardan biridir. Nəzərə almaq lazımdır ki, İslam aləmində üçüncü göz deyirlər ki, o beyinin tən ortasında yerləşir və Allahın yaratdığı möcüzəvi bir vəzdir. Bu işığı hiss edən vəzdir və həm də melatonin hormonunu ifraz edir.

Melatonin hormonu da qaranlıq otaqda dərin yuxuya gedəndə ifraz olunur. Bu hormonun ifrazı da insanların sağlamlığı üçün çox faydalı və önəmlidir.

Saat 11-dən 4-ə kimi insanlar yatmalıdır. Gecə yuxusunu mütləq almaq lazımdır. Az-az yemək də düzgün deyil. Bu adam sahura qədər az-az yemək yeyirsə, deməli yatmır. Yatmamışdan 4 saat əvvəl yeməyi yekunlaşdırmaq daha məqsədəuyğundur.

**- Hansı yeməklərdə hansı yağlardan istifadə etməliyik?**

- Yağlar çeşidlərə ayrılır. Ən zərərli yağlar hidrogenlə doydurulmuş trans yağlarıdır. Bu yağların insan orqanizminə heç bir faydası yoxdur və əksinə ürək, qan-damar sistemi xəstəliklərini ortaya çıxarır. Bu xəstəliklərdə də Azərbaycan birinci yerdədir. İnsan nə yeyirsə, odur.

Keçmişdə trans yağ yox idi. Nənə-babalarımız quyruq yağı yeyir, kərə yağını əridib saxlayırdılar. İndi bunu edən qadınların sayı çox təəssüf ki azdır. İndiki xanımlar ət məhsullarını bitki mənşəli yağlarla bişirirlər. Heyvan mənşəli mənsullar heyvan mənşəli yağlarla bişməlidir. Bu yağların zərəri yoxdur.

Zeytun yağında olan faydalar heç bir yağda yoxdur. Hətta kosmetik vasitələrdə də zeytun yağından istifadə olunur. Bütün bunlar zeytun yağının nə qədər çox faydalı olduğunun sübutudur. Tərəvəzlərin bişirilməsində zeytun yağından istifadə etməliyik. Tərəvəzləri çox qızartmaq olmaz. Çünki bu da xərçəng hüceyrəsinə səbəb ola bilər. Bunu həkimlər də təstiq edir.

**Zeytun yağı yeganə yağdır ki, 250 dərəcəyə qədər dözür və kimyəvi tərkibini dəyişmir. Amma bu bir şərtlə olur ki, zeytun yağında qızardılan karbohidartlar tam qızardılmamalıdır. Bunlar biraz pörtlədilməlidir.**

**- Ətin bişmə dərəcəsi necə olmalıdır?**

- Steyk ətlər tamamilə fərqlidir. Bu 28 gün sonra yeyilə bilər. Bu ət dincəldiyinə görə soyuducuda olan himalay duzu vasitəsilə ət quruyur və mikroblardan uzaq olur. Artıq qan orada quruyur. Ətin bişmə dərəcələri var ki, bunlar da zövqə fərqlidir. Az bişmiş ət rəngli görsənir və qanın suyu axır. Bu əslində qan deyil şirədir ki, faydası var. Steyk yemək istəyən insan onu anlayıb sonra yeməlidir.

***Ayşən Vəli***



# “Fransa çirkin əməllərindən çəkinməlidir”

## KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

***“Fransa dövlətinin və senatının Azərbaycan əleyhinə apardığı yalan, böhtan kampaniyası getdikcə sürətlənir və bu nəinki xalqımızda, eləcə də hadisələrə ayıq başla yanaşan, reallıqları qiymətləndirən fransızlarda belə ikrah hissi doğurur”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.***

Komitə sədri qeyd edib ki, ölkəsində ictimai-siyasi sabitliyi bərpa edə bilməyən, xalqın qəzəbinə tuş gələn Fransanın hakimiyyət dairələri, deputatları öz ölkələrinin problemlərini aradan qaldırmaq, insanların etimadını doğrultmaq əvəzinə, ermənilərin əlində oyuncağa çevrildiklərini nümayiş etdirir, təcavüzkarlara bəraət qazandırmaq, onlara arxa olmaq üçün dəridən-qabıqdan çıxırlar.

“Bu günlərdə ermənilərin sifarişi ilə Fransa senatının keçirdiyi konfrans nəinki anti-Azərbaycan xarakterli olması ilə, eləcə də fransalı deputatların mənəviyyatsızlığını, ikiüzlülüyünü, şərəfsizliyini qiymətləndirmək baxımından səciyyəvi idi. Senat bu konfransı keçirməklə bir daha sübut etdi ki, o milli mənafelərə, demokratiyaya, insan hüquqlarının qorunmasına, haqqın-ədalətin bərpasına deyil, ayrı-ayrı şəxslərin, erməni milyarderlərin puluna, varına arxalanır və Fransa dövlətinin demokratik təsisatlarını, quruluşunu təcavüzkarlara, terrorçulara, maddiyyat sahiblərinə satırlar.

Bu üzdəniraq “konfrans” ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisinin aprelin 4-də qəbul etdiyi bəyanatda bir daha bildirilmişdirdir ki, “Fransa parlament üzvlərinin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hədəfə alan, Azərbaycan ərazisində separatizmi açıq şəkildə şirnikləndirən davranışı siyasi riyakarlığın ən barış təzahürüdür”. Əlbəttə bu satqınlıq, riyakarlıq, beynəlxalq hüquq normalarına hörmətsizlik, ilk növbədə Azərbaycanın suverenliyinə, dövlət mənafelərinə xəyanətdir. Bütün bu amillər isə Fransa Prezidenti Emmanuel Makronun çirkin əməllərindən, anti-Azərbaycan mövqeyindən qaynaqlanır.

Fransa prezidentinin və senatının belə məkrli məqsədlərlə çıxış etməsi, Azərbaycanın imicinə, beynəlxalq aləmdə qazandığı uğurlara, düşmən üzərində tarixi qələbəsinə kölgə salmağa cəhd göstərməsi birinci dəfə deyil və bu əməllər sözsüz ki, dövlətimizə qarşı əhəmiyyətsiz təsirdən başqa bir şey ola bilməz. Çünki həyata keçirilən bu tədbirlərin-qəbul edilən qətnamələrin, təşkil olunan konfransların, verilən bəyanatların, edilən çıxışların heç bir hüquqi əsası yoxdur və onlar reallıqları əks etdirmir.

Azərbaycan heç bir ölkənin ərazisini işğal etməmişdir. Qarabağ erməniləri blokadaya alınmamışdır. Laçın dəhlizi humanitar məqsədlər üçün açıqdır. Azərbaycan öz sərhədlərinin toxunulmazlığı, ərazisində olan erməni silahlı qruplaşmaların neytrallaşdırılması, Qarabağa silah-sursat, hərbi qüvvələrin daşınmasının qarşısının alınması uğrunda mübarizə aparır və bu onun haqqıdır. Fransa dövləti bir həqiqəti dərk etməlidir və bilməlidir ki, Azərbaycan öz iqtisadiyyatını inkişaf etdirməklə, ordusunu möhkəmləndirməklə, bir çox mühüm layihələrə imza atıb beynəlxalq aləmdə nüfuz qazanmaqla, xalqın birliyinə nail olmaqla öz torpaqlarını 30 ildən sonra erməni təcavüzkarlarından azad etmişdir.

İllər ərzində Azərbaycan xalqı, dövlətimizin rəhbəri cənab İlham Əliyev çox böyük əzab-əziyyətlərə tablanmış, güclü-qüdrətli bir dövlət yaratmışdır. Bu dövlətin gücü, qüdrəti, şücaəti, mübarizliyi 44 günlük müharibə günlərində bütün dünyaya məlum oldu. Oğul və qızlarımız torpaq uğrunda canlarını qurban versələr də bir an mübarizədən geri çəkilmədilər. Erməni ordusunda 11 min fərari olduğu halda, Azərbaycan ordusunda bir nəfər də geri çəkilmədi, döyüşlərə atılmaqdan qorxmadı. Prezidentimizin çağırışı ilə ölkə vətəndaşları bir yumruq kimi birləşdi və qələbə qazandı. Erməni əsgər və zabitləri isə bir-birlərinə xəyanət etdilər, bir-birilərini öldürdülər, səngərlərini qoyub qaçdılar, ana-bacılarını ağlar qoydular, ordunu taladılar, bir-birlərinə qənim kəsildilər. Hakimiyyətdə olanlar, Ermənistana rəhbərlik edənlər də onlardan geri qalmadılar. Dövlət rəhbərlərinin hər biri ayrı-ayrı ölkələrə sığındılar və bu gün də başqa dövlətlərin kölgəsi altında öz xəyanətkar əməllərini davam etdirirlər, xalqı satırlar, əzirlər, qula, köləyə döndərirlər.

Fransa xəyanətkar bir dövlətə, millətçi təcavüzkar rəhbərlərə himayədarlıq edir. Əlbəttə ki, bu, canıyananlıq da deyil, erməni xalqını qumara qoyub Cənubi Qafqazda möhkəmlənmək, müəyyən nüfuz əldə etmək istəyidir. Ancaq fransızlar bilməlidirlər ki, bu artıq mümkün deyil. Onlar riyakar, sahibini satan, hər vaxt xəyanətkar yolunu tutan Ermənistana bel bağlamamalı, etibar etməmələdirlər. Çünki ruslara etdikləri kimi onlara da xəyanət edəcəklər, Azərbaycana, Türkiyəyə, Gürcüstana, Ukraynaya düşmən kəsildikləri kimi ermənilər bir gün də Fransaya düşmən kəsiləcəklər, onun torpaqlarına göz dikəcəklər. Fransalılar həqiqətləri dərk etməli və öz dövlətlərinin gələcəyi barədə düşünməlidirlər”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Obsessiv Kompulsiv Pozuntu nədir?



***Obsessiv Kompulsiv Pozuntu (Sarışan Hallar Nevrozu) insanın tez-tez rastlaşdığı istənmədən gələn təkrarlanan, narahat edən düşüncə və çox vaxt rahatlamaq üçün edilən təkrarlanan davranışlarla xarakterikdir. Bir çox halda bu düşüncələr təmizlik, kontroletmə, dini düşüncə və buna uyğun davranışlarla özünü büruzə verir. SİA mövzu ilə bağlı araşdırma aparıb.***









ARAŞDIRMA

**Simptomlar:**

- Çirklənmə qorxusu
- Səliqəli və simmetrik olmaq
- Özünüzə və yaxınlarınıza zərər verməkdən narahat olmayın
- Başqalarının toxunduğu obyektlərə toxuna bilməmək
- İşlər nizamlanmayanda stressə qapılmayın
- Əl sıxmaqdan çəkinməyin
- Davamlı əl yuma
- Həddindən artıq təmizlik vəsvəsəsi
- Mikrob qorxusu
- Daimi duş qəbul etmək istəyi
- Daim şeyləri yoxlamaq ehtiyacı
- Hərşeyi sayma
- Qapıların kilidləndiyinə əmin olmaq üçün onları dəfələrlə yoxlamaq
- Sönmüş olduğundan əmin olmaq üçün sobanı dəfələrlə yoxlamaq
- Duanı, sözü və ya ifadəni daxilən təkrarlamaq

**Obsessiv Kompulsiv Pozuntu hansı insanlarda olur?**

Cinsiyyətindən, sosial vəziyyətindən, təhsil səviyyəsindən asılı olmayaraq, hər kəsdə bu xəstəlik görülə bilir. Dünya Səhiyyə təşkilatının verdiyi məlumata əsasən hər 1000 nəfərdən 12-si bu xəstəlikdən əziyyət çəkir. Azərbaycanda da təxminən 12000-ə yaxın insan bu xəstəlikdən əziyyət çəkməkdədir.

**Müalicəsi var?**

Obsessiv kompulsiv pozuntu (Sarışan hallar nevrozu) bəzən kronik hala keçsə də, bir çox insan bu xəstəlikdən tam olaraq qurtulur. Müasir müalicə yanaşması dərmanla və ya psixoterapiya ilədir, kronik hala keçən xəstələrdə isə həm dərman, həm də psixoterapiya birgə həyata keçirilir.

Obsesif-kompulsif pozğunluğu olan bəzi insanlar ətraf mühitin stres faktorlarından təsirlənir. Bəzi ətraf mühit amilləri və ciddi həyat dəyişiklikləri simptomların pisləşməsinə səbəb ola bilər. Bu amillərə aşağıdakılar daxildir:

- Təcavüz
- Yaşayış vəziyyətindəki dəyişikliklər
- Xəstəlik
- Sevilən birinin itkisi
- İş və ya məktəblə bağlı dəyişikliklər və ya problemlər
- Münasibətdəki problemlər

**Xəstəliyin müəyyən olunması üçün test var?**

Obsesif kompulsif pozğunluq üçün heç bir laboratoriya testi yoxdur. Diaqnoz xəstənin simptomları və xəstənin ümumi davranışı üzrə mütəxəssis həkim tərəfindən edilə bilər.

Psixiatr tərəfindən aparılan psixoloji qiymətləndirmə zamanı düşüncələr, hisslər, simptomlar və davranış nümunələri araşdırılır.

Obsesif-kompulsif pozğunluğun diaqnozu bəzən çətindir, çünki simptomlar obsesif-kompulsif şəxsiyyət pozğunluğu, narahatlıq pozğunluqları, depressiya, şizofreniya və ya digər psixi sağlamlıq pozğunluqlarına oxşar ola bilər.

İnsanlarda həm obsesif-kompulsif pozğunluq, həm də digər psixi pozğunluqlar ola bilər. Bu səbəblə xəstəni müayinə edəcək psixiatr bütün amilləri nəzərə almalıdır.

Psixoloq Aytən Ələkbərova: "Bir çox insanlarda reaksiya vermə ehtiyacına səbəb yaradan sıxıntılar olur. Bu həmin sıxıntılardır ki, qorxu, narahatlıq və iyrənmə hissi ilə özünü göstərir. Həmin zaman şəxsin eyni sıxıntı verən düşüncələri geri dönə bilmir. Takıntılarla əlaqədar olaraq narahatlığı azaltmağa, həmin o narahatlığın içərisində hədəfləyən təkrarlanan davranışlar və ya zehni hərəkətlərdir ki, toxunma hiss ilə bunlara qızıl, gümüş və aksesuarlar insanda narahatlığın yaranmasına gətirib çıxarır. Biz buna takıntılar deyirik. Bunlar təkrarlanan, israrcı, istənilməyən və narahatedici düşüncələrdir. Bu psixologiyada Obsessiv Kompulsiv Pozuntu yaradır.

Bu tip insanlarla işləmək üçün onların ilk şüuraltından gəlmək lazımdır. Bəzilərində bu yeniyetməlik, yaxud ilk gənclik çağlarında tez-tez rast gəlinir. Bu psixoloji bir durumdur.

Qazı-işığı tez-tez yoxlamaq, iyrənmə və s. də Obsessiv Kompulsiv Pozuntudur. Yaxud əli hər hansı bir zinyət əşyasına dəyirsə, saatlarla əlini yuyur, və ya gümüş qaşıq-çəngəl stola oturanda onların ətrini duyaraq oturmur. Daha sonra onlar əllərində qaşıntı hiss edir və qızartı baş verir".

***Ayşən Vəli***

# “Bizə qarşı 3 rus diviziyası vuruşub”

*Abutalıb Səmədov: “Ali Baş Komandanın cəsarəti, müdrikliyi, qətiyyəti qələbənin qazanılmasında həlledici amil oldu”*



Siyasi ekspert Abutalıb Səmədovun “Səs” qəzetinə müsahibəsi

**- Abutalıb müəllim, Paşinyanın arvadı etiraf edib ki, “Vətən müharibəsi dövründə Ermənistan ordusunun 25 faizi, yəni 11 min nəfəri fərari olub, döyüşlərdən qaçıb”. Bu, bir daha Ermənistan əsgərlərinin Azərbaycanın ordusu qarşısında aciz durumda olduğunu və ölməmək üçün fərariliyə üstünlük verdiklərinin təsdiqi sayıla bilər?**

- İkinci Qarabağ müharibəsi zamanı ermənilərin kütləvi şəkildə döyüşməkdən imtina etməsində, fərarilərin sayının rekord həddə çatmasında qeyri-adi heç nə yoxdur. Bu, bir daha göstərir ki, qonşularımız bizimlə döyüşməyə qadir deyillər və iddia etdikləri kimi ermənilər döyüşçü millət heç vaxt olmayıblar. Əslində, Birinci Qarabağ müharibəsində torpaqlarımızı ermənilər deyil, ruslar işğal edib onlara peşkəş etmişdi. Reallıq belə olduğu halda ermənilər iddia edirdilər ki, Azərbaycanı döyüş meydanında məğlub edən hətta Ermənistan ordusu belə deyil və 20 faiz ərazimizi guya “Qarabağ ordusu” deyilən oyuncaq dəstə işğal edib. Ancaq onlar nə qədər desələr də məlum idi ki, bizə qarşı 3 rus diviziyası vuruşub və onların arxasında gizlənən ermənilər uzun illər utanmadan özlərini qəhrəman kimi təqdim ediblər. Azərbaycan əsgəri 44 gün ərzində bu “mifi” darmadağın etdi. Ermənilərin necə “qəhrəman” olduqları bütün dünya gördü və bundan sonra onlar fərarilərin sayına görə dünyada birinci olduqlarını haqlı olaraq bəyan edə və bununla “öyünə” bilərlər.

**- 44 günlük Vətən müharibəsində Azərbaycan ordusundan bir nəfər də olsun fərari olmadı. Bu faktı Azərbaycan xalqının, ordusunun vətənə, dövlətə bağlılığının əyani sübutu hesab etmək olar?**

- İkinci Qarabağ müharibəsinin gedişində əsgərlərimizin göstərdiyi qəhrəmanlığı bütün dünya heyranlıqla müşahidə etdi. Bu fakt Azərbaycan xalqının, ordusunun vətənə, dövlətə bağlılığının şübhəsiz ki, əyani sübutu kimi qiymətləndirilməlidir. Bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində Şuşanı azad edən Azərbaycan xüsusi təyinatlılarının peşəkarlığı ilə yanaşı vətənə bağlılığı, cəsarəti və qorxmazlığı da öyrənilir və tədris edilir. Ancaq biz bu nəticəyə birdən gəlib çıxmadıq. Etiraf etməliyik ki, Birinci Qarabağ müharibəsi dövründə Azərbaycanda hərbi xidmətdən yayınmaq üçün müxtəlif yollar axtaran vətəndaşlarımız mövcud idi və bu halların kökündə vətəndaşlarımızın, ilk növbədə gənclərin dövlət rəhbərliyinə, ali baş komandana inamsızlığı dayanırdı. Təəssüf ki, yaxın tariximizdə Laçını müdafiə etmək əvəzinə kütləvi şəkildə səngərləri tərk edib qaçan əsgərlərimiz də olub və 1992-ci ilin məşhur kadrları hamımızın yaxşı yadındadır.

**- Müharibə dövründə çağırış məntəqələrinin qarşısında müharibəyə getmək üçün gənclərin uzun növbələri yaranmışdı. Bu kimi hallar gənclər arasında vətənpərvərlik ruhunun yüksək olmasından irəli gəldiyini demək olar?**

- 44 günlük müharibə dövründə həmvətənlərimizin davranışı şübhəsiz ki, tariximizin ən şərəfli səhifələrindən biri kimi daim xatırlanacaq və bizdən sonra gələn nəsillər bu tarixlə haqlı olaraq fəxr edəcəklər. Həmvətənlərimizin bu fədakarlığının, qəhrəmanlığının kökündə şübhəsiz ki, gənclərimizin arasında vətənpərvərlik ruhunun yüksək olması dayanırdı. Ancaq bu vəziyyətə nail olmaq, Azərbaycan əsgərinin qəhrəman mahiyyətini üzə çıxarmaq üçün ciddi iş aparmaq tələb olunurdu. Azərbaycan rəhbərliyi uzun illər bu istiqamətdə iş apardı. Yeni cəsarətli, döyüşkən nəsli yetişdirmək üçün məqsədyönlü fəaliyyət təşkil olundu. Vətənpərvərlik ruhunda tərbiyə alan yeni nəsil müharibədə möhtəşəm qələbəmizi təmin etdilər. Təsadüfi deyil ki, döyüşlər zamanı şəhid olan qəhrəmanlarımızın böyük əksəriyyəti Birinci Qarabağ müharibəsini görməmiş və həmin hadisələrdən sonra doğulmuş gənclər idi. Tarixi qələbənin qazanılmasında gənclər müstəsna rol oynadılar. Ancaq bir məqamı da hamı etiraf etməlidir ki, Ali Baş Komandanın cəsarəti, müdrikliyi, qətiyyəti qələbənin qazanılmasında həlledici amil oldu. Çox təəssüf ki, bu həqiqəti bəziləri etiraf etmək istəmirlər. Onlar unudurlar ki, əsgər başında böyük komandan dayanmış olduqda qəhrəman, cəsarətli və yenilməz olur.

**GÜLYANƏ**

# Aprel döyüşləri: Şanlı Zəfərə doğru yolun başlanğıcı!



***Şanlı Aprel döyüşlərindən artıq yeddi il ötür. Bu döyüşlər Azərbaycanın şanlı Ordusunun tarixinə qızıl hərflərlə yazılan zəfər salnaməsidir. Qalibiyyət bayrağını başı üzərində dalğalandıran Vətənimizin mərd oğulları xalqımızın qəhrəmanlıq, sərkərdəlik tarixini keçən zamanlardan üzü bəri belə şərəflə yaşadıb, bu gün də yaşadır, sabah da yaşadacaqlar.***

atəşə tutması artıq dövlətimizin, xalqımızın səbr kasasını daşırdı. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində tarixi Zəfərə imza atmaqla nəyi nə zaman etməyi bildiyini bir daha işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə nümayiş etdirdi. Mövqeyindən bir addım belə geri çəkilməyəcəyini bəyan edən Prezident İlham Əliyev Azərbaycana qarşı 7 şərt irəli sürən Ermənistanın baş naziri Nikol Paşinyanın qarşısında bir şərt qoydu – işğal edilmiş torpaqlarımızı tərk etmək! Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi dövründə, xüsusilə müqəddəs savaşın başlandığı sentyabrın 27-də xalqa müraciətində erməniləri torpaqlarımızdan iti qovan kimi qovacağımızı bildirdi və qətiyyətli mövqeyi ilə bu vədini gerçəkləşdirdi. Azərbaycanın üçrəngli bayrağının işğal altında olan bütün torpaqlarımızda dalğalanacağına əminlik ifadə edildi və bu əminlik gerçəkliyə



Ordu ərazi bütövlüyümüzü qoruyan hərbi qüvvədirsə, onu yenilməz edən əsgər və zabitlərimizin gücü, iradə möhkəmliyi, qorxmazlığı, döyüş bacarığıdır. Bütün bunların tarixi köklərimizə və milli-mənəvi dəyərlərimizə bağlılığın, sədaqətin nəticəsi olduğu dəfələrlə təsdiqlənib. Tariximizə Aprel döyüşləri kimi yazılan qələbə isə bir daha Azərbaycan Ordusunun gücünü nəinki düşmənə, bütün dünyaya nümayiş etdirdi. Aprel döyüşləri hər zaman xalqımızın qəhrəmanlıq səhifəsinə qürurla yazılacaq və qürurla xatırlanacaq bir tarixdir.

Aprel döyüşləri həm də, Ordumuzun gücünün, xalqla ordunun birliyinin, gənclərimizin vətənpərvərliyinin göstəricisi kimi tarixə düşdü. Aprel qələbəsi bir daha sübut etdi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Aprel döyüşləri nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndləri istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Lələtəpə yüksəkliyinin və onun ətrafındakı strateji baxımdan mühüm əhəmiyyət daşıyan ərazilərin azad edilməsi ilə Ordumuz geniş əraziyə nəzarət etmək imkanı qazandı. Qısa müddətdə bölmələrimiz tərəfindən azad edilən ərazilərdə yeni mühəndis-istehkam məntəqələri quruldu. Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı.



Dörd günlük müharibədə 320-dən artıq düşmən hərbçisi məhv edildi. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı. Azərbaycan Ordusu Ağdərə, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanını qazandı. Aprel döyüşləri nəticəsində azad etdiyimiz yüksəkliklər İkinci Qarabağ müharibəsində Ordumuzun uğurlu əməliyyatlar həyata keçirməsi üçün əlverişli imkanlar yaratdı.

Aprel döyüşləri həm də şanlı Zəfərimizin ilk müjdəsi oldu. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti dəfə müxtəlif istiqamətlərdən Azərbaycan ərazilərini çevrildi.

44 gün ərzində Silahlı Qüvvələrimiz 300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüş meydanında işğaldan azad etdi. Sonrakı mərhələdə isə Ermənistan kapitulyasiya aktına imza atdı, Ağdam, Kəlbəcər və Laçın rayonları qan tökülmədən geri alındı. Bununla da, Azərbaycan özünün ərazi bütövlüyünü təmin etdi. Bu müqəddəs mübarizədə isə dördgünlük Aprel döyüşləri müstəsna yer tutur!

***Samir Vəliyev***
***Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının sədri***

# Milli maraqlar, yoxsa?..

***Azərbaycana qarşı hər zaman ikili standartlar sərgiləyən ABŞ bu dəfə də öz məqsədli siyasətini davam etdirir***










Məlum olduğu kimi, martın 30-da ABŞ Prezidenti Co Baydenin sədrlik etdiyi "Demokratiya naminə" adlı ikinci virtual sammit baş tutub. Dəvət olunanların siyahısına nəzər salarkən onların hansı meyarlar əsasında seçilməsi sual doğurmaya bilmir. Belə ki, sözügedən sammitə demokratiyadan bixəbər olan bir sıra dövlətlər dəvət edildiyi halda Azərbaycan, Türkiyə, Macarıstan, Çin kimi dövlətlər ABŞ-ın siyahısından kənar qalıblar. Gürcüstanın isə məqsədli şəkildə yalnız prezidenti demokratiya tədbirinə dəvət alıb. Bu isə ABŞ-ın demokratiya amilini öz siyasi hədəfləri üçün istifadə etməsinin təsdiqidir. Təəccüblüdür ki, 120 ölkədən əlavə, dəvət olunan 8 ölkənin bəzilərinin daxilində vətəndaş müharibəsi hələ də davam edir. Hətta görüşdə iştirak edən elə dövlətlər var ki, demokratiyanın əsas elementlərindən olan sosial rifah, adambaşına düşən gəlirləri ABŞ-ın elan etdiyi dəyərlərlə qəti şəkildə uzlaşmır. Sammitdə Ermənistan kimi antidemokratik, terrorçu və işğalçı bir ölkənin iştirakı isə demokratiya anlayışının üstündən xətt çəkmək deməkdir. Ermənistan 30 il işğalçılıq siyasəti yürüdüb, Azərbaycanın əhalisini yurd-yuvasından didərgin salıb, şəhərlərini, kəndlərini dağıdıb, ekoloji terror həyata keçirib, Xocalı soyqırımını törədib. Nə qədər qəribə də olsa, onilliklər boyu çoxsaylı hərbi, bəşəri cinayətlər törətmiş Ermənistan indi ABŞ tərəfindən "demokratik ölkə" sayılır. Bu, bəşəri dəyərlərin iflasıdır...

Bundan əlavə, elə ABŞ Dövlət Departamentinin Ermənistanda 2022-si ildə insan haqlarının vəziyyəti ilə bağlı hesabatında hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən zorakılıq, pis həbsxana şəraiti, əsassız həbslər və söz azadlığının məhdudlaşdırılması kimi hallar öz əksini tapıb. Həmçinin ötən il Ermənistan Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) müraciətlərin sayına görə ilk onluqda yer alıb. Belə ki, ötən il ərzində Ermənistandan AİHM-ə edilən müraciətlərin sayı 1250 təşkil edib ki, bu da ərizələrin ümumi sayının 1,7 faizini təşkil edir. Eyni zamanda, 2022-ci ildə Ermənistandan əvvəlki illə müqayisədə 111 yeni müraciət daxil olub. Müraciətlərin sayında artımın olması da ölkədə insan hüquqları sahəsində vəziyyətin gərgin olmasını bir daha sübut edir. Belə olan halda Ermənistan hansı kriterialar əsasında "Demokratiya sammiti"nə dəvət alır?

Görünür, ABŞ-da artan demokratik problemlərin fonunda ABŞ demokratiyasını "canlandırmaq" cəhdi ilə çağırılan "Demokratiya sammiti" böyük ironiyadır, çünki onun məqsədi sadəcə olaraq digər ölkələri sıxışdırmaq, dünyanı müxtəlif düşərgələrə bölməkdir. Bu, bir növ "parçala, hökmranlıq et" siyasətindən xəbər verir. Dünya aydın gördü ki, ABŞ-ın son illərdə Suriyanı, Yəməni, İraqı, Liviyanı, Yaxın Şərqin başqa müsəlman ölkələrini demokratiyaya "qərq etmək" niyyəti hansı fəlakətlərə gətirib çıxarıb. Bu sammit demokratiyaların beynəlxalq məsələlərə yanaşma tərzində iqtisadi və təhlükəsizlik maraqları ilə yanaşı, insan ləyaqəti və azadlığı ilə bağlı dərindən qorunan dəyərlərin də yer aldığına, həm də qlobal ictimai rifahla bağlı məsələlərə dair də güclü bir mesaj göndərə bilərdi. Lakin tam əksinə, Sammit demokratik dəyərlərin təşviqi kimi yox, ABŞ administrasiyasının illustrativ seçim menyusu kimi yadda qaldı. Bu səbəbdəndir ki, sammit bu dəfə də beynəlxalq miqyasda ciddi tənqid hədəfinə çevrildi. "Reuters" agentliyi yazır ki, virtual Sammitdə iştirak edən bəzi ölkələrdə insan haqlarının vəziyyəti ciddi narahatlıq yaradır. İnsan haqları müdafiəçiləri ABŞ administrasiyasına belə bir sammitin keçirilməsi üçün təşəkkür bildiriblər, amma deyiblər ki, sammitə qoşulan ölkələrdə demokratiyanın yaxşılaşdığını göstərən çox az əlamətlər var. Onlar qeyd edirlər ki, sammitin ölkələrin öhdəliklərinə necə əməl etməsinə nəzarət mexanizmi də yoxdur.

Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzindən Kristofer Hernandez-Roy qeyd edib ki, ABŞ bəzən bir diktatorla mübarizədə başqa bir diktatorla danışıqlar aparır. Bu da "Demokratiya naminə" sammiti uğursuzluğa məhkum edir. Amerikalı ekspert Piter Teysin sözlərinə görə, ikili standartlar Bayden xarici siyasətinin əsas dayağıdır, Sammit isə sadəcə göstəriş üçün boş ritorikadır və insan haqlarını möhkəmləndirməyəcək, əksinə, bütün dünyada institusional demokratiyanı daha da zəiflədəcək: "Bayden deyir ki, demokratiya təsadüfən meydana gəlmir, onun uğrunda mübarizə aparmaq, möhkəmləndirmək və qorumaq lazımdır. Real dünyada isə ABŞ tam əksini müdafiə edir. Sammit uğursuzluğa düçardır, dəvət olunan ölkələrdə demokratik standartları möhkəmləndirməyəcək". Ekspertin sözlərinə görə, Macarıstan, Türkiyə, Azərbaycan və digər demokratik hökumətləri dəvət etməmək və müzakirələr aparmamaq istəyi özünütəcriddən başqa bir şey deyil və bu, ABŞ-ın milli maraqlarına ziyan vurur.

Baş verənlər fonunda erməni hüquq müdafiəçisi Avetik İşxanyanın Ermənistanın bu sammitdə təmsil olunmasına münasibəti də olduqca maraqlıdır: "Beləliklə, Ermənistan sözdə baş nazir, diktator və xəyanətkar Nikol Paşinyanın şəxsində ABŞ Prezidenti Co Baydenin təşəbbüsü ilə onlayn rejimdə keçirilən ikinci demokratiya Sammitinə dəvət olunub. Buradan belə bir nəticə hasil olur ki, seçkiləri saxtalaşdıran, məhkəmələri məhv edən, siyasi təqiblər həyata keçirən, qətllər də daxil olmaqla, öz tərəfdarlarının cinayətlərini ört-basdır edən diktator baş nazirin hökuməti "demokratik" hesab olunur. Mən hələ bu baş nazirin xəyanətləri haqqında danışmıram. Faktiki olaraq, demokratiyanın carçısı sayılan ABŞ yuxarıda sadalanan özbaşınalıqları müdafiə edir və onları demokratik dəyərlər sayır. Lakin əsl həqiqətdə bu dövlətlə demokratiya anlayışına kölgə salınır. Bu səbəbdən sizin sammitinizə və demokratiyanıza tüpürmək istəyirəm".

Bu arada maraqlı bir məqamı da qeyd edək ki, Ermənistan "Demokratiya naminə" sammitinin yekun bəyannaməsini dəstəkləməkdən imtina edib. Ermənistanla yanaşı, Hindistan və Meksika da sənədə imza atmayıb. Yekun bəyannamədə Ukraynada müharibənin humanitar nəticələri pislənilir. Dövlət Departamenti tərəfindən yayılan bəyannamənin mətninə əsasən, sənəddə Rusiya Federasiyasından "qüvvələrini Ukrayna ərazisindən çıxarmağı" tələb edilir. Ermənistan, Hindistan və Meksika bu bəndə dəstək verməyib. Bununla Paşinyan ABŞ-ın istədiyi mövqeyi nümayiş etdirməkdən imtina edib.

***Sevinc Azadi***

# Aleksey Fenenko: “Bakının ağıllı siyasəti işləyir, İrəvanın təxribatları nəticə vermir”

***Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Fenenko “Moskva-Baku” portalına müsahibəsində, İrəvanın təxribatlarına baxmayaraq Bakı Ermənistan-Azərbaycan münaqişəsi ətrafında yaranmış situasiyanın qalibi olacaq. Politoloqun fikirlərini oxucularımıza təqdim edirik.***






**- Ermənistanın üçtərəfli bəyanatların icrasına mane olduğu bir şəraitdə Azərbaycanın hazırda həyata keçirdiyi siyasəti necə xarakterizə edə bilərsiniz?**

- Azərbaycan səbr taktikasını seçib. O, hər şeyin necə bitəcəyini gözləyir və nəhayət, Ermənistan danışıqları pozarsa, o zaman Bakının əli sərbəst olacaq. Çünki Azərbaycanın səbri bizə göstərməyə imkan verir ki, bu gün danışıqların rəqibi məhz İrəvandır.

Gördüyümüz odur ki, Ermənistan təxribat törədir, Azərbaycan ehtiyatla, uyğun pərdə ilə reaksiya verir və başqa şeylərdir. Bunu hər yerdə görə bilərsiniz. Ermənistan Zəngəzur dəhlizini açmaq istəmir. Azərbaycan isə öz tərəfindən dəhliz saxlayır. Və dəhlizin hələ də qalacağını bəyan edir. Əlavə olaraq, hər ehtimala qarşı İran üzərindən alternativ dəhliz tikir.

Məsələn, ötən il Ermənistan əvvəllər işğal etdiyi Laçın şəhərini Azərbaycana qaytarmaq istəməyib. Azərbaycan Laçın öz nəzarətinə qayıtsın deyə tez bir zamanda Ermənistan tərəfi üçün alternativ yol çəkdi.

Başqa bir misal: Ermənistan daha ağıllı olduğunu düşünərək deyir: Qoy Bakı özü Qarabağ erməniləri ilə danışıqlar aparsın ki, bunlar status danışıqları olsun. Amma Azərbaycan Qarabağın erməni əhalisi ilə Azərbaycana inteqrasiya ilə bağlı danışıqlar aparır, onları Bakıya dəvət edir.

Ermənistan tərəfi Laçın dəhlizi ilə hərbi yükləri, hərbi qulluqçuları daşıyır. Azərbaycan buna cavab olaraq nə etdi? Bəli, sadəcə dəhlizi bağladı. Və çatdırılmalar dayandı. Bir neçə ay keçir və erməni tərəfi eyni şeyi Laçın dəhlizi ətrafında aparmağa başlayır. Azərbaycan burada yollara, yüksəkliklərə nəzarət edir. Aydındır ki, Ermənistanı günahsız qurban saymaq istəyənlərlə heç nə etmək olmaz. Hələ də tərəddüd vəziyyətində olanlar, razılaşmaların pozulmasının həqiqətən də əsas tərəfdarının kim olduğunu çox gözəl görürlər.

Azərbaycan Ermənistanın təxribatlarına diqqətlə reaksiya verir. Burada əsas söz “diqqətlə”dir. Hələlik Azərbaycan İrəvanın təxribatlarına genişmiqyaslı cavab verməyə hazırlaşmır. Amma nəzərə alsaq ki, Ermənistan tərəfi getdikcə aqressivliyini artırır, mən istisna etmirəm ki, Azərbaycandan daha sərt addımlar gözlənilə bilər.

Azərbaycan Ermənistanın üçtərəfli bəyanata yenidən baxmaq cəhdlərinə və cavab manevrlərinə qarşı çıxır. Eyni zamanda, Ermənistanın vəziyyəti təkrarlamaq üçün heç bir resursu yoxdur. Amma Ermənistan hələ də nəyəsə ümid edir. Amma Bakının ağıllı siyasəti işləyir.

Ermənistan yenidən təxribata getmək qərarına gəlib və bu, ağıllı deyil. Əgər Ermənistanın informasiya təbliğatı İrəvana kömək edirsə, bu, yalnız bir müddət ola bilər.

İrəvan Bakı ilə erməni separatçıları arasında danışıqların getməsi ideyasını fəal şəkildə təbliğ edirdi. Rəsmi Bakı bu mövqeni öz xeyrinə üstələyib: o, Qarabağın erməni icması ilə, Qarabağın erməni əhalisi arasında olan sadə insanlarla danışıqlara başladı və onlarla dialoq mümkün oldu. Beləliklə, rəsmi Bakı obyektiv olaraq Ermənistanın ayaqları altından yer sökür. Axı Ermənistan rəhbərliyinin əsas tezisi ondan ibarətdir ki, Azərbaycan qayıtsa, “erməni soyqırımı” olacaq.

Azərbaycan deyir və mən əminəm ki, bu, praktiki olaraq sübut edəcək ki, Bakı Azərbaycan Konstitusiyası çərçivəsində Qarabağ ermənilərinə Azərbaycan vətəndaşları kimi normal yaşayış, yaşayış şəraiti, qalanlarla bərabər təminat verir. Bəs onlar İrəvandan nə ala bilərlər? Yalnız yeni bir müharibə. Onların buna ehtiyacı varmı?

Azərbaycan güclü mövqelərdən çıxış etməkdə davam edir. Bir neçə cəbhədə manevr etməkdə və mövqelərini möhkəmləndirməkdə davam edir. Birincisi, məncə, ermənilərlə dialoqdur. Bu, münasibətlərin qurulmasının mümkün olduğunu göstərir. İkincisi- danışıqların pozulmasının əsl günahkarının kim olduğunu, daha doğrusu Ermənistanı göstərir. Üçüncüsü, Azərbaycan konkret iqtisadi layihələr təklif edir, Ermənistan isə ancaq hay-küy salır, danışıqları pozur.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan nizamlanmasında indiki vəziyyətdə regionda Rusiya və Türkiyə faktorları son dərəcə əhəmiyyətli olmaqda davam edir. Onlara göz yummaq olmaz. Ermənistan ayıq mövqedən çıxış etsəydi, Türkiyənin NATO-nun üzvü, güclü ordusu olan dövlət olduğunu xatırlayardı. Çətin ki, bunu nəzərə alan ABŞ və Avropa ölkələri NATO üçün əhəmiyyətini nəzərə alaraq, Ermənistanın xətrinə Türkiyə ilə ciddi çəkişmələrini davam etdirəcəklər. Bir az səs-küy yarada bilərlər. Amma Türkiyə ilə ciddi münaqişəyə girməyəcəklər. Qərb Ermənistan naminə Türkiyə ilə münaqişəyə girməyəcək.

Yeni müharibə başlasa, Azərbaycan yenə qalib gələcək. Azərbaycan sabah olmasa da istənilən halda qalan ərazilərini qaytaracaq. İş sadəcə olaraq bitəcək, etdiyi hərəkətlərlə Ermənistan nəhayət Rusiyanı özündən döndərəcək, Ermənistanda radikallar hakimiyyətə gələcək və Rusiya bazasının ölkədən çıxarılmasını tələb edəcəklər. Ermənistan Qərb kartı ilə necə oynasa da, Azərbaycan öz ərazilərini qaytaracaq.

Əminəm ki, Azərbaycan Qarabağın qalan hissəs məsələsində Rusiya ilə razılaşa biləcək. Əvvəla, ona görə ki, Ermənistan rəhbərliyi bu gün Rusiyaya qarşı o qədər ədəbsiz davranır ki, bu, Azərbaycana Moskva ilə danışıqlar aparmaq üçün yaxşı şans verir. Bundan əlavə, Azərbaycan bu gün Rusiya üçün xüsusi əhəmiyyət kəsb edir. Axı bizim çoxqütblü dünyanın inkişafı çərçivəsində fəaliyyət göstərən mühüm strateji layihələrimiz var.

Bir neçə gün əvvəl Ermənistan BCM-nin üstünlüyünü tanıdı. O cümlədən Rusiya liderinin həbsi üçün orderi. Ermənistan hesab edir ki, Qərb ona bunun üçün çox böyük əvəz ödəyəcək. İrəvanın yeganə ümidi odur ki, Qərb Ermənistanı qarşıdurmada dəstəkləyəcək və s. Mənim buna böyük şübhəm var. Ancaq ermənilər buna ümid edirlər.

***Tərcümə - Elçin Bayramlı***



**Təhmasib Novruzov**

# Fars və hay dövlətsizçiliyi...

***Yeni sözdü: “dövlətsizçilik”! Əslində, yeni söz də demək olmaz. Sadəcə, “dövlətçilik” sözünün tən ortasına bir “siz”, yəni inkar şəkilçisi artırdıq, oldu “dövlətsizçilik”. Ötən əsrin əvvəlində bəzi dünya güclərinin əli ilə yaradılan, İran adlanan qondarma fars hakimiyyəti də, onunla bərabər yenə dünya güclərinin dəstəyi ilə yaradılaraq Ermənistan adlandırılan hay hakimiyyətinin də indiki dünyada apardıqları dövlət siyasətini izləyib, analiz edəndə, bundan daha uğurlu bir söz tapmadım.***

“Niyə”sini az-çox siyasətlə maraqlanan hər kəs yaxşı bilir. Siyasətlə maraqlanmayıb, bu “niyə”nin cavabını bilməyənlərə də mən izah edim, onlar da bilsinlər. İstəkli oxucum, yüz il əvvələ atüstü bir nəzər salaq. İran-Fars dövləti nə zaman yarandı? 1923-də. Harada? Qədim türk torpaqlarında.Ermənistan-hay dövləti nə zaman yarandı? 1918-də! Harada? Yenə qədim türk torpaqlarında.Hər ikisi də o dövrdə dünyaya meydan oxuyan bəzi güclərin xüsusi siyasi, iqtisadi və hərbi dəstəkləri ilə arayaərsəyə gətirildi. Onu da xatırlayaq ki, min ildən çox avrasiyanın üçdə ikisinə nəzarət edən türk dövlətlərinin çöküşü də həmin dövrə təsadüf edir. Yəni Böyük Sılcuqlardan başlamış, Atabəylər,Teymurilər, Ağqoyunlular, Osmanlılar, Səfəvilər, Əfşarlar, Qacarlar kimi türk dövlətləri de-fakto ötən əsrin əvvəlinə kimi üç qitəyə - avropaya, asiyaya və afrikaya nəzarət edirdi. Məhz türkün tarixində, təbii ki, yanlışlıqlar nəticəsində başlanan çöküşü fürsət bilən bəzi dünya gücləri fürsəti fövtə vermədən türk dünyasını parçalamaq siyasətinə start verdilər. Bunun üçün türk xalqlarını bir-birindən ayrı salmaq ən vacib şərt idi.

Həmin güclər gecə-gündüz baş sındırıb çox “uğurlu” bir qərar verdilər: regionda anti-türk dövlətlər yaratmaq, onlara dəstək verib, cücərdib, boya-başa çatdırmaq və türk birliyinin yenidən bərpa edilməməsi üçün bu dövlətlərdən istifadə etmək! Beləcə qafqazda, qədim türk yurdunda Ermənistan, Rey mülkündə, yenə qədim türk yurdunda farsların hakimiyyəti altında olan İran adlı dövlətlərin yaradılması və bəslənilməsi layihəsi işə düşdü. İndi həm İranda, həm də Ermənistanda idarəçilik metodlarına, siyasi gedişlərə (əlbəttə, buna “siyasi gediş” demək olarsa) nəzər salıb görürsən ki, bu zavallılar heç dövlət nədi, dövlətçilik nədi, bunun fəlsəfəsini belə anlaya bilmirlər. Əslində bu da təbiidir.

Dədələri, babaları dövlət idarə ediblər ki, özləri də bunu bacarsınlar? Tarix boyu haylar da, farslar da onun-bunun qoltuğuna sığınıb başlarını saxlayıblar. İndi qərb öz maraqları naminə bir proje tərtib edib, icrasını tapşırıblar dövlətin və dövlətçiliyin nə olduğunu anlamayan bu bədbəxtlərə. Bunlar da kim, yəni hansı layihə şəriki nə hava çalır, sümüklərinə düşsə də, düşməsə də, qol götürüb süzürlər. Onlar üçün nə İran dövlətinin, nə bu ölkədə istismar olunan 85 milyon, təbii ki, başda 40 milyondan çoxu türk olmaqla müxtəlif millətlərin nümayəndələrinin, nə Ermənistan adlanan dövlətin və bu ölkədə istismar olunan 2-3 milyon hayın taleyi maraqlı deyil. Yetər ki, layihə müəllifi olan şəriklərin hər dediyinə “ləbbeh” deyib, onu icra eləsinlər. Hər bir dövlətin iki başlıca vəzifəsi var: biri, dövlətin qüdrətini artırmaq və onun dünya dövlətləri sırasında yerini möhkəmləndirmək, digəri isə ölkədə yaşayan insanların və gələcək nəslin təhlükəsiz, firavan həyatlarını təmin etmək .Sivil dünyada istənilən dövlətin daxili və xarici siyasəti bu iki başlıca prinsipə əsaslanır. İranın, ya da Ermənistanın dövlət (əslində dövlətsizlik) siyasətində bu iki prinsipdən əsər-əlamət görən varsa, buyursun. Dədə-babadan bir deyim var, “filankəs bədbəxt dörd ölü qonşu ilə düşməndi”. İran bu gün Ermənistandan başqa bütün yaxın və uzaq qonşuları, müsəlman dünyasının mütləq əksəriyyəti ilə düşməndi. Bu, İranın və iranlıların sabahı üçün nə qədər təhlükəlidir, bunu siyasətdən xəbəri olmayan adam da bilir. O zaman bu ölkənin, adını siyasətçi qoyan başbilənləri bunu anlamısa, necə deyəsən ki, bu ölkədə dövlət siyasəti var? Elə də Ermənistan! Dörd tərəfi türk dünyası olan bu proje-dövlətin də başbilənləri türklərə qarşı aşkar savaş açıb. Yadıma “Kəlilə və Dimnə” kitabındakı məşhur “Sərçə ilə filin hekayəsi” düşdü...

Xülasə, mövzu elə geniş mövzudu ki, bir qəzet yazısında hamısını demək mümkün deyil. Sadəcə istədim bilməyənlər də bilsinlər ki, bizimlə bu gün düşmənçilik edən hayların da, farsların da dövlətsizlik fəaliyyətlərinin kökləri qidasını hardan alır. Bəzən hansısa qərb dövlətinin farslarla hesablaşacağı haqqında sadəlövh fikirlərə qulaq asanda, istərdim mənim dediklərimi, yəni gerçəklərə əsasalanan fikirləri xatırlayasınız. Və unutmayasınız, “türkün türkdən başqa dostu yoxdur”! Bir də böyük Atatürkün bir kəlamını unutmayaq: “Türk olmaq zor, çünki dünya səninlə savaşır. Türk olmamaq daha zor, çünki türklə savaşmağa məcbursan...”



**Heydər Əliyevin elmi, nəzəri və praktiki mexanizmini qısa müddətdə işləyib hazırladığı və həyata keçirdiyi sosial siyasət konsepsiyası Azərbaycan xalqının rifafını təmin etdi.**

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# Sosial müdafiənin unikal konsepsiyası





Sovet İttifaqının dağılmasından sonra Azərbaycanın iqtisadiyyatı ciddi böhrana düşdü, təsərrüfat sistemi sıradan çıxdı. Sosialist iqtisadi sistemindən kapitalizmə keçid prosesi özü ilə çoxsaylı problemlər gətirdi. Zavod-fabriklərin, müxtəlif təyinatlı istehsal və qeyri-istehsal müəssisələrinin fəaliyyətinin dayanması işsizliyin, yoxsulluğun sürətlə artmasına, əhalinin sosial vəziyyətinin pisləşməsinə gətirib çıxardı. Yaranmış vəziyyət təcili tədbirlər görülməsini - iqtisadiyyatda dönüş yaradılmasını, əhalinin sosial vəziyyətinin yaxşılaşmasını tələb edirdi. Lakin 90-cı illərin əvvəllərində respublika hökuməti bu işin öhdəsindən gələ bilmədi. Vəziyyət yalnız 93-cü ilin ortalarından- ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra dəyişməyə başladı.

## Əhalinin sosial müdafiəsini gücləndirən strategiya necə yaradıldı?

Heydər Əliyevin parlaq zəkası, dövlətçilik təcrübəsi, uzaqgörənliyi ona ölkəmizi idarə etdiyi dövrdə ən obyektiv və optimal qərarlar verməyə imkan yaratdı. Dövlətçilik bacarığı və respublika təsərrüfatını dərindən bilməsi qarşıya qoyulmuş məqsədlərə çatmasında ona kömək oldu.

Ümummilli liderin öz qarşısına qoyduğu ən vacib vəzifələrin sırasına əhalinin sosial müdafiənin gücləndirilməsi, insanların sosial rifahının yaxşılaşdırılması daxil idi. Bunun üçün mütləq qaydada iqtisadiyyatı böhrandan çıxarmaq, gəlirlərin artmasını təmin etmək lazım idi. Yalnız bundan sonra sosial problemləri həll etmək, əhalinin rifahını yüksəltmək olardı.

Ümummilli liderin qısa müddətdə hazırlayıb həyata keçirdiyi neft strategiyası ölkəyə investisiya axınını təmin etdi, gəlirləri artırdı. Bu gəlirlərin digər sahələrə yönəldilməsi ilə ümumi iqtisadiyyatda inkişaf başladı. Nəticədə ümumi daxili məhsul və dövlət büdcəsinin gəlirləri artdı, sosial müavinətlər - pensiyalar, maaşlar ardıcıl surətdə yüksəldi.

Heydər Əliyevin rəhbərliyi ilə inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan öz iqtisadiyyatını gücləndirdikdən sonra əldə edilən gəlirlərlə sosial problemləri həll etməyə başladı. Yoxsulluğun və işsizliyin azaldılmasına nail olundu. Daxili siyasətin prioritetinə çevirən sosial rifah siyasəti ölkə əhalisinin böyük hissəsini əhatə edirdi. Sistemli şəkildə artırılan əmək haqları, müxtəlif peşə sahibləri üçün yaradılan imtiyazlar və müxtəlif kateqoriyadan olan güzəştli təbəqəyə sosial ödəmələr yoxsulluğun səviyyəsinin azaldılmasını təmin edirdi.

Beləliklə, Heydər Əliyevin Azərbaycana ikinci rəhbərliyə başlamasından sosial-iqtisadi sahədə sürətli inkişaf start götürdü. Bu inkişafa ulu öndərin həyata keçirdiyi özəlləşdirmə proqramı, torpaqların kəndlilərə paylanması, kiçik və orta sahibkarlığın inkişafına dəstəyinin verilməsi böyük töhfə oldu.

## Heydər Əliyev Azərbaycanı sosial dövlətə çevirdi

Azərbaycanın müstəqilliyinin ilk illərində ölkəmizdə səmərəli dövlət idarəçiliyinin olmaması bütün sahələrdə böhranın dərinləşməsini labüdləşdirməklə iqtisadi sahədə yaranmış çətinliklər, maliyyə çatışmazlığı sosial-iqtisadi vəziyyətin sabitləşdirilməsi üçün real addımların atılmasını tamamilə məhdudlaşdırmışdı. Bu proseslərin fonunda sosial müdafiəni təmin edən proqramlar həyata keçirilməmiş, beləliklə cəmiyyətdə təbəqələr arasındakı uçurum getdikcə böyümüşdü. Həmin illərdə sosial sferada köklü dəyişikliklər məhz ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra baş verdi.

Böhran həddində olan ölkənin vətəndaşlarının sosial müdafiəsini yaxşılaşdırmaq məqsədi ilə Heydər Əliyev 1994-cü ilin 15 iyunda “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında” fərman, fərmandan irəli gələn vəzifələrin daha səmərəli yerinə yetirilməsi üçün “Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında” növbəti sənəd imzaladı.

1995-ci ildə ümummilli liderin birbaşa müəllifliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyasının 16-cı maddəsində deyilirdi ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, onların sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalır. Bununla da ölkədə bu istiqamətdə hüquqi bazanın möhkəmləndirilməsi, habelə təkmilləşdirilməsi istiqamətində ardıcıl olaraq lazımı addımlar atıldı.

Artıq 2003-cü ildə Azərbaycan əhalisinin sosial vəziyyəti xeyli yaxşılaşmış, işsizlik və yoxsulluğun əhəmiyyətli dərəcədə azaldılmasına nail olunmuş, xalqın rifahına xidmət edən güclü, davamlı inkişaf edən dövlət sitemi yaradılmışdı. Azərbaycan xalqı məhz bu böyük işi qiymətləndirərək 2003-cü ildə ulu öndərin həmin siyasətini davam etdirəcəyinə söz verən varisinə - İlham Əliyevə etimad göstərdi.

Zaman da sübut etdi ki, xalq öz seçimində yanılmadı. İlham Əliyevin rəhbərliyi dövründə həm iqtisadiyyatımız dünyada ən yüksək templə inkişaf etdi, həm də əhalinin sosial rifahı dəfələrlə gücləndi. Atasının qoyduğu izlə addımlayan İlham Əliyev həm də onun vəsiyyətinə əməl elədi, Azərbaycana misilsiz bir töhfə verdi - xalqın 30 illik həsrətini bitirdi, onları doğma torpaqlarına qaytardı.

## Qısa müddətə böyük işlər sığdırmaq

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra həyata keçirdiyi sosial-iqtisadi islahatların çox qısa müddətdə ciddi nəticələr verməsi böyük dövlətçilik təcrübəsinə, dərin zəkaya, iqtisadiyyatı dərindən bilməyə və respublikanın potensialının düzgün qiymətləndirməyə və ondan səmərəli istifadə üçün səhvsiz islahatlar keçirməyə əsaslanan şəxsi keyfiyyətlərə bağlı idi.

Bu nəticənin unikallığı onunla seçilir ki, sabit ictimai-siyasi, sosial-iqtisadi vəziyyətə malik ölkələrdə belə bu cür qısa müddətdə belə yüksək uğurlara nail olunmayıb. Bu uğurlar həmin dövrdə ağır müharibəyə düçar olmuş, 1 milyonluq qaçqın-köçkün ordusuna qucaq açmış, sosialist iqtisadi sisteminin tamamilə dağıdıldığı, yenisinin isə yaradılmadığı, dövlətçilik aparatının iflic olduğu bir respublikada əldə olundu.

Heydər Əliyevin həyata keçirdiyi sosial islahatlar müvafiq hüquqi bazanın yaradılmasını da vacib edirdi. Heydər Əliyev sosial müdafiə strategiyasını hazırlayan zaman bir tərəfdən sosial siyasətin ölkənin real iqtisadi imkanlarına uyğunlaşdılmasına, digər tərəfdən müvafiq normativ-hüquqi bazanın yaradılmasına önəm verirdi. Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, pensiya təminatının yaxşılaşdırılmasına xidmət edən bir sıra normativ aktlar qəbul edildi.

## Heydər Əliyevin sosial müdafiə strategiyası çoxpilləli və dinamik idi

Heydər Əliyevin böyük dövlətçilik zəkası sayəsində 1996-cı ildən başlayaraq ölkədə möhkəm ictimai-siyasi sabitlik yarandı, sağlam-iqtisadi münasibətlər bərqərar oldu və bunun nəticəsi olaraq sosial siyasətdə, o cümlədən sosial müdafiə sisteminin gücləndirilməsində mühüm, ardıcıl tədbirlər həyata keçirilməyə başladı. Bu siyasəti 2003-cü ildə prezident seçilən İlham Əliyev uğurla davam etdirdi və bu gün Azərbaycan dünyada sosial dövlət kimi tanınır.

Ümumiyyətlə, 1993-2003-cü illərdə Azərbaycanda bütün sahələrlə bərabər sosial müdafiə sahəsində də xeyli iş aparıldı. Hakimiyyətdə olduğu illərdə Heydər Əliyevin imzasını atdığı 60-dan artıq sənəd müharibədən sonrakı Azərbaycan üçün sosial sahədə inkişafın təmin edilməsində ən böyük xidmətlərdən oldu.

Heydər Əliyevin həyata keçirdiyi sosial-iqtisadi modernləşməyə əsaslanan yüksək inkişaf strategiyası öz bəhrəsini verir. Ulu öndərin elmi, nəzəri və praktiki yollarını qısa müddətdə işləyib hazırladığı və həyata keçirdiyi sosial siyasət konsepsiyası Azərbaycan xalqının rifafını təmin etdi.

*Lalə Mehralı*

SON SƏHİFƏ
SƏS
6 aprel
2023-cü il



# Kərə yağının istehsalı niyə azalır?

*"Yerli istehsalın azalmasının səbəbi hazırda ölkəmizdə heyvandarlığın səmərəli olmamasıdır. Kərə yağının əsas mənbəyi heyvandarlıqdır. Kərə yağının istehsalının azalması bizdə heyvandarlıq sahəsində müəyyən problemlər yaşandığını göstərir. Məsələn, heyvanların yemi azalıb. Bir tərəfdən torpaq sahələri zəbt olunub və örüş sahələri yoxdur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Rauf Qarayev deyib.*

**İQTİSADÇI AYDINLIQ GƏTİRDİ**

Onun sözlərinə görə, ölkədə yem bazası qıtdır, heyvanların bəslənməsi üçün yem azdır: "Xaricdən alınma isə baha başa gəlir. Fermer də hesab-kitab edir, heç bir gəliri olmadığını görür, nəticədə məcbur qalıb heyvan saxlamaqdan imtina edir, onun yerinə kənd təsərrüfatının digər sahələri ilə məşğul olur. Bu da ölkədə heyvandarlıqda müəyyən tənəzzülə gətirib çıxarır. Nəticədə biz kərə yağı istehsalının azalmasını müşahidə edirik".

İqtisadçı sözlərinə davam edərək bildirib ki, yaşanan bu problem həm də kənd təsərrüfatında düzgün planlaşdırma olmamasının nəticəsidir: "Ölkədə kənd təsərrüfatı sahəsində müəyyən boşluqlar var. Müəyyən təhlillər doğru aparılmır, statistik məlumatlar düzgün deyil, planlama düzgün təşkil olunmur. Planlaşdırma odur ki, bir məhsula hərtərəfli baxmaq lazımdır. Statistik məlumatlar, təhlillər olmalıdır ki, bu məhsulu əkəndə, biz nə qədər fayda götürəcəyik? Misal üçün, biz pambıq əkəndə, pambıqdan son nöqtədə onun heyvanlar üçün yem kimi istifadəsinə qədər baxmalıyıq. Yəni məhsul istehsal edəcəyiksə, orda heyvandarlığı da düşünməliyik. Çoxşaxəli məhsul əkmək lazımdır. Həm heyvandarlıqda istifadə edək, həm də digər sahələrdə strateji əhəmiyyəti olsun. Üstəlik də gəlirlilik önəmlidir.

Xaricdən gətirilən məhsul indi yerli istehsaldan daha ucuz başa gəlsə də, bir müddət sonra onların qiyməti də artacaq. Yerli istehsal azalır, idxaldan asılılıq artır. İdxal məhsulları yerli istehsaldan daha münasib qiymətə başa gəlir, ona görə seçim olur. Ancaq bu, indi üçün belədir. Bu, sonradan qiymətlərin artmasına gətirib çıxaracaq. Çünki bazarda ancaq idxal məhsulları olacaq, yerli istehsal da o qədər deyil ki, alternativ olsun, rəqabət yaransın. İdxaldan asılılıq olacaqsa, bir müddət sonra burda da istədikləri qiymətləri təyin edə biləcəklər".

**Ləman Əlizadə**

# Gəncləri zərərli təsirlərdən necə qoruyaq?

*"Son proseslər bir daha göstərdi ki, Azərbaycan gənci davamlı olaraq müxtəlif təhdidlərlə, zərərli və zəhərli ideologiyalarla üz-üzədir. Bu özünü təkcə dini fəaliyyət sahəsində deyil, digər sahələrdə də açıq göstərir. Bu gün həm Şərqin, həm də Qərbin Azərbaycan gəncliyi ilə bağlı çox ciddi və məkrli planları var". Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.*



Onun sözlərinə görə, bütün bunlar ölkəmizin gənclər siyasətinə yenidən baxılmasını, bu cür təhdidlərə qarşı yeni strategiyaların və konsepsiyaların hazırlanmasını labüd edir: "Belə davam etsə, gələcəkdə bu təhdid və təhlükələrin miqyası daha da artacaq. Azərbaycan gəncliyi ciddi qopuqluq yaşayaraq, milli kimliyindən və milli-mənəvi dəyərlərindən daha da uzaqlaşacaq. Hazırkı vəziyyətdə həm ailələrimizin, həm də dövlət qurumlarının üzərinə ciddi vəzifələr düşür. Bu bir reallıqdır ki, müasir dövrdə ailə institutu üzərinə düşən əksər vəzifələrin öhdəsindən müxtəlif səbəblərdən layiqincə gələ bilmir. Bu gün övladlarımızı daha çox yaşadığımız mühit, televiziya və sosial şəbəkələr tərbiyə edir".

Deputat sözlərinə davam edərək bildirib ki, belə olduğu halda dövlət qurumlarının üzərinə daha çox vəzifə düşür: "Ancaq bütün hallarda ailələr də övladlarının sağlam tərbiyəsi üçün ciddi cəhdlə çalışmalıdırlar. Bu gün tərbiyəsinə önəm verə bilmədiyimiz və vaxt ayıra bilmədiyimiz gənclik sabah bizim olmayacaq.

Eyni zamanda, bu məsələdə Elm və Təhsil, Gənclər və İdman və Mədəniyyət nazirliklərinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin də üzərinə çox mühüm vəzifələr düşür. Çox geniş miqyasda maarifləndirmə və təbliğat işləri aparılmalıdır. Həm gənclər, həm də valideynlər arasında. Xüsusilə də bölgələrdə bu istiqamətdə ciddi işlərin görülməsinə ehtiyac var.

Məktəblərimizdə, məscidlərimizdə, kinoteatrlarımızda, televiziyalarımızda, mediamızda və idman klublarımızda milli-mənəvi dəyərlərimizin qorunması və təbliği işinə xüsusi həssaslıqla yanaşılmalı, davamlı maarifləndirmə və təbliğat işləri aparılmalıdır. Əks halda bu günün gəncliyi gələcəkdə bizim olmayacaq".

**Ləman Əlizadə**

# Samovar oğrusu tutulub...



**İsmayıllı rayonunun Quşençə kəndi ərazisində yerləşən evlərdən silsilə oğurluqlar edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan SİA-ya verilən məlumata görə, ümumilikdə 6 evdən samovar və mis materialdan olan digər məişət əşyalarını oğurlayan naməlum şəxs zərərçəkənlərə 2300 manat maddi ziyan vurub.**

Baş vermiş oğurluqlarla bağlı rayon polis şöbəsinə məlumat daxil olan kimi hadisə yerlərinə baxış keçirilib və cinayəti törədən şəxsin axtarışlarına başlanılıb. Keçirilən əməliyyat nəticəsində başqasının əmlakını gizli olaraq talayan şəxsin elə həmin kənd sakini Raqub Hacılı olduğu müəyyən edilib və o, şübhəli şəxs qismində saxlanılıb. Araşdırma zamanı saxlanılan şəxsin oğurladığı samovarları rayon ərazisində ayrı-ayrı misgərlərə satdığı məlum olub. Davam etdirilən tədbirlərlə həmin əşyaların da əksəriyyəti satdığı şəxslərdən götürülərək maddi sübut kimi istintaqa təhvil verilib.

# Atalıq məzuniyyəti nədir?



*"Qohumluq borcunun yerinə yetirilməsi ilə bağlı ailə, məişət və başqa sosial məsələləri təxirə salmadan həll etmək, təhsil almaq, yaradıcı elmi işlə məşğul olmaq üçün habelə yaşına, fizioloji keyfiyyətlərinə görə işdən ayrılmaq zərurəti olduqda işçinin ödənişsiz məzuniyyətlərdən istifadə etmək hüququ vardır".*

Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Şamil Paşayev deyib. Onun sözlərinə görə, işçilərin xahişi ilə arvadları doğuşla əlaqədar məzuniyyətdə olan kişilərə — 14 təqvim gününədək bir il ərzində ödənişli məzuniyyət verilir: "Atalıq məzuniyyəti məcburi deyil və işçinin xahişi ilədir".

Şamil Paşayev sözlərinə belə davam edib: "Əgər qadının doğuşla əlaqədar bir məsələsi olursa, kişi xəstəxananın qeydiyyat şöbəsindən arayışı alıb iş yerinə təqdim edə bilər".

**Ayşən Vəli**

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600